
... Astara polisinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində atasının qatili uzaq Naxodkadan Azərbaycana gətiriləndə bütün ailə üzvləri kimi o da məhkəmənin başlayacağı günü nigarançılıqla gözləyirdi...
Rövşən Lənkəranski
Bəhram
ÇƏLƏBİ

# Bəhram Çələbi

RÖVŞƏN LƏNKƏRANSKİ

Redaktor:
Samir Mustafabəyli

Bəhram Çələbi. RÖVŞƏN LƏNKƏRANSKİ

Bakı, Qanun Nəşriyyatı, 2016,

ISBN 978-9952-36-

© Bəhram Çələbi, 2016
© Qanun Nəşriyyatı, 2016

# Rövşən Rafİq oğlu Canİyev

DOSYE:

Azərbaycan Respublikasının vətəndaşı, orta təhsilli, ailəlidir. Lənkəran şəhəri, T.İsmayılov küçəsi, ev 26-da anadan olub.

Astara rayon xalq məhkəməsinin 15.10.1996-cı il tarixli hökmü ilə Cinayət Məcəlləsinin 220-ci maddəsinin 1-ci hissəsi, 97-ci maddəsi ilə 2 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum olunub.

Səbail rayon məhkəməsinin 04.03.1997-ci il tarixli qərarı ilə cəzadan şərti azad edilib.

2000-ci ilin iyulunda yenidən məsuliyyətə cəlb olunub. Bu dəfə Cinayət Məcəlləsinin 15, 94-cü maddəsi (qəsdən adam öldürməyə cəhd) və 228.1- ci (Qanunsuz olaraq odlu silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və ya gəzdirmə) maddəsi ilə ittiham olunub. Lakin məhkəmə onun psixi müalicəyə göndərilməsi barəsində qərar çıxarıb.

2001-ci ildə Sabunçu rayon məhkəməsinin qərarı ilə Caniyev cinayət məsuliyyətindən azad edilib.

Коронован в 2001 году
в Москве ворами Дабчаевым А.А. (Артик),
Абдуллаевым М.М. (Сеймур Нардаранский).
Praym kraym

2002-ci ildə isə Rövşən barəsində olan həmin cinayət işi təzələnib.

Lənkəranski istintaqdan qaçıb gizləndiyinə görə, onun barəsində 01.07.2002-ci il tarixdə axtarış elan olunub.

2003-cü ilin iyulunda "Apelsin" boulinq-klubda Elçin Yevlaxskinin qətlə yetirilməsini bəzi antirövşənçilər Canıyevin üstünə yaxıb ləkələməyə girişsələr də, kələkləri baş tutmadı. Bu qətllə əlaqədar olaraq Canıyevi 2004-cü ilin dekabrında Moskvada saxladılar. Rövşən alibilərini ortaya qoyaraq bulanmış sudan quru çıxdı.

2006-cı ildə Kutaisi klanının Moskvada keçirdiyi sxodka iştirakçıları MUR əməkdaşları tərəfindən saxlanılanda Rövşən də Petrovka-38-ə gətirildi. Həmin vaxt Lənkəranski beynəlxalq axtarışda olsa da, saxta sənədlər sayəsində həbsdən yaxa qurtara bildi.

Ukrayna MCMİ-nin məlumatına görə, Rövşən Canıyev xəfiyyələr tərəfindən üç dəfə bu ölkədə saxlanılıb.

2008-ci ilin soyuq fevralında Rövşən özəl mehmanxanalardan birində dincələrkən qapı döyülmədən açılır və otağa beş-altı nəfər soxulur. Pövşəni milis bölməsinə aparırlar. Elə həmin gün Şevçenko rayon məhkəməsi Canıyevə 40 sutkalıq həbs cəzası kəsir. Rövşənin xilası üçün Ukraynanın ən savadlı vəkilləri işə girişirlər.

3 dekabr 2009-cu ildə Ukrayna DİN-nin MCMİ əməkdaşları Kiyevdə yenidən Rövşən Canıyevi saxlayırlar və Qolosevki rayon məhkəməsi onu 40 sutka müddətinə dəmir barmaqlıqlar arxasına göndərir. On gün sonra isə Lənkəranskini Azərbaycana ekstradisiya edirlər.

2010-cu ilin sentyabrının əvvəllərində Rövşənin yaxın tərəfdaşlarından biri - Vaqif Tukanov qətlə yetirilir. Olaydan iki həftə sonra, yəni ayın 16-da Moskvada Aslan Usoyana sui-qəsd təşkil olunur. Hadisədən bir gün əvvəl Ukrayna güc orqanları Kiyevdə Rövşəni saxlayaraq KPZ-yə oturtmuşdular. "Praym Kraym"-ın yayımladığı xəbərə görə, Canıyev Moskva - Kiyev qatarından düşərkən perronda əməliyyatçılar tərəfindən "gül-çiçəklə" qarşılanmışdı.

2012-ci ilin iyununda Dubayda dincələn Rövşənə sui-qəsd təşkil olundu. Üç bıçaq yarası ilə ağır vəziyyətdə olan Canıyevi reanimasiyaya çatdırdılar. Sağlam bədən və sağlam ruh sayəsində Rövşən ölümün pəncəsindən qurtuldu.

Sabirabadlı Hikmət və Masallı Mamedin ölümlərindən sonra Moskvada bir neçə tanınmış avtoritetin qətli Rövşəni dərindən təhlillər aparmaq zorunda qoydu. Azərbaycanlı oğruları hiss olunacaq dərəcədə açıqcasına sıxışdıraraq nüfuz dairələrindən uzaqlaşdırmaq istəyirdilər.

# Bioqrafiyası:

Rövşənin atası Rafiq Eynəli oğlu Canıyev Lənkəran şəhərində sayılıb seçilən, kasıb-küsuba əl tutan, din-iman sahibi kimi tanınan adam olub. İttifaqın dağıldığı doxsanıncı illərin əvvəllərində Azəərbaycanda yaşanan çörək qıtlığı zamanı Lənkəran cammaatı Rafiq Canıyevin işgüzarlığı sayəsində çox da böyük sıxıntı çəkmədi. Astaradakı dostları vasitəsilə un taparaq lənkəranlıları çörəklə təmin etmək üçün onun sexləri gecə-gündüz işləyirdi.

1992-ci ilin may ayının 21-də Astaradan Lənkərana dönən Rafiqin 2106 markalı “Jiquli”sini Pensər çayının üstündə yeni salınmış körpüdə üç nəfərdən ibarət silahlı dəstə gözləyirdi.

“QAZ” -24 “Volqa”da gəlmiş bu üç nəfər Şahağacı kənd sakinləri - əvvəllər xuliqanlıq üstündə məhkum olunmuş Sovet və Qüvvət Quliyev qardaşları, həmçinin Ədalət Məlikov idilər. Onlar cörək zavodunu öz adamlarına təhvil verməyi tələb edirdilər.
İstədiklərini ala bilməyən dəstə üzvləri Rafiqi küt alətlərlə döyməyə, maşının şüşələrini sındırmağa, gövdəsini yararsız hala salmağa başlayırlar. Artıq huçunu itirməkdə olan, ağır yaralanmış Rafiqi “QAZ”-24 oturdaraq Sovet Quliyevin həyətinə gətirən dəstə üzvləri burada da yarı bihuş vəziyyətdə olan Rafiqi döyməyə, işgəncələr verməyə girişirlər. Hətta bu halında da onların tələbinə “YOX” deyən Rafiqi gözlərini qan örtmüş Sovet güllə ilə vuraraq qətlə yetirir.

Olaydan dərhal sonra dəstə üzvləri Azərbaycandan qaçaraq Rusiyanın ucqarların gedirlər.

Sovet Quliyev 1993-cü ildə Vladivostok şəhərində törətdiyi başqa bir cinayət işinə görə həbs olunur.

1957- ci ildə Şahağacı kəndində anadan olmuş Sovet Quliyev 1984-cü ildə 8 il müddətinə azadlıqdan məhrum edilmişdi. 1954-cü il təvəllüdlü Ədalət Məlikov hələ 1983-cü ildə Saratov vilayətinin Balaşova şəhər məhkəməsində RSFSR CM-nin 206–cı maddəsiylə, 1955-ci ildə anadan olmuş Qüvvət isə Azərbaycan CM-in 207 –ci maddəsiylə həbs cəzasına məhkum edilmişdilər.

Respublikada reket və soyğunçuluqla məşğul olan qrupların tüğyan elədiyi vaxtda öz həmkəndliləri üçün belə təhlükəli olan bu şəxslər törətdikləri ağır cinayətdən sonra yalnız kənddən deyil, hətta respublika sərhəddin aşaraq Rusiyaya qaça bildilər...

Sovetin böyük qardaşı, dar ayaqda kasıb-küsuba əl tutan Bığ Gülağanın (Dədə ləqəbi ilə tanınan şəxsin) evi darmadağın edilib yandırıldı. Gülağa, həyat yoldaşı, övladlığa götürdükləri qız uşağı və bir neçə nəfər Bakıdan gəlmiş polis dəstəsinin keçirdiyi “Subtropik əməliyyatı”nın qurbanı oldular.

“Mənim qardaşlarımla heç bir əlaqəm yoxdur!” deyən Gülağanın qəbahəti hüquq- mühafizə orqanları qarşında “boyun əyməməsi” idi. Əslində sübh çağı qəfil keçirilən bu əməliyyatın nə olduğunu anlaya da bilməzdi. O vaxtlar əsl cinayətkar qrup zərərsizləşdirilmədiyinə görə tez-tez belə şaiyələr də gəzirdi ki, Rafiq Canıyevin qisasını almaq üçün Lənkərandan guya Şahağacına silahlı basqın edilib.

Cənub bölgəsində İsgəndər Həmidovun “Subtropik əməliyyatı”na bəraət qazandıranlar da oldu. Və beləliklə, üç böyük cilddən ibarət 3948 saylı cinayət işi əslində, tamamlanmamış qaldı. Axtarışda olan Sovet Quliyev isə 1993-cü ildə Vladivostok şəhərində törətdiyi başqa bir cinayət işinə görə həbs olundu.

Hörmətinə və səxavətinə görə Lənkəranda nüfuz sahibi olmuş Rafiq Canıyevin vəhşicəsinə qətlə yetirilməsinə çoxları təəssüflənirdi. Lakin bu itki ən ən çox onun o vaxt 17 yaşına yenicə qədəm qoymuş oğlu Rövşəni bərk sarsıtmışdı. 4 il qatilini axtaran nigaran ruh oğlunun yuxusuna gələrdi. Dörd məşəqqətli, mənəvi iztirablarla dolu il...

... Və Astara polisinin keçirdiyi əməliyyat tədbirləri nəticəsində atasının qatili uzaq Naxodkadan Azərbaycana gətiriləndə bütün ailə üzvləri kimi o da məhkəmənin başlayacağı günü nigarançılıqla gözləyirdi...

Müttəhim kürsüsündə oturmuş qatil eynən atasına bənzəyən Rövşənin kipriklərini qırpmadan ona zillənmiş baxışlarına tab gətirməyib:

“sən bayıra çıx!” deyərək qışqırmışdı...
(N. Ədiloğlu / Avrasiya. Astara 18. 07. 1996.

Bu ilin martında Moskvada “göyərti kralı” kimi tanınan Canbulat Şamil oğlu evinin qarşısında öldürülür. Ona 3 güllə vurmuşdular. Canbulatın qətlindən sonra göyərti biznesinin kimin əlinə keçəcəyi Moskvadakı bazarlarda əməlli müzakirə mövzusu idi. Heç kim risk edib Rusiya paytaxtının göyərti ilə təminat məsələsini boynuna götürmək istəmirdi. Tək bir səbəbə görə: ortada Rövşən Lənkəranski amili vardı.

Lənkəranski Türkiyədə yaşasa da, bütün Moskva regionunun meyvə-tərəvəzin topdansatışı ilə məşğul olan bazarları birbaşa onun nəzarətindəydi. Bazarlara məsul isə Lənkəranskiyə yaxın “qanuni oğru” Levan Canqveladze sayılırdı...

Rövşən Ərəb Əmirliklərində, Türkiyədə yaşadığından, Moskvada öz təsir dairəsindəkiləri qorumaq, mövqelərini saxlamaq çətin olsa da, heç kim onunla açıq müharibəyə getmək həvəsində deyildi.

“Şakro Molodoy”un qruplaşmasından olan və “Vaqif Bakinski”nin “qanadı altında” biznes quran Canbulatın qətli aranı yenidən qızışdırdı. Bundan sonra Moskvada Rövşənə yaxın iki nəfər öldürüldü. Bir sözlə, müharibə yenidən alovlandı.

Yenə güllə səsləri eşidildi...

Как стало известно ИА «Прайм Крайм», сегодня ночью в Стамбуле на бульваре Барбароссы совершено вооруженное нападение на 41-летнего вора «в законе» Ровшана Джаниева, более известного в криминальной среде как Ровшан Ленкоранский.

По сообщениям турецких СМИ, двое неизвестных открыли огонь из автоматического оружия с глушителем, когда черный Range Rover Джаниева стоял на перекрестке в ожидании зеленого сигнала светофора. Джаниев и его водитель получили множественные огнестрельные ранения, от которых последний скончался по дороге в госпиталь. Сам Ровшан в тяжелом состоянии был доставлен в реанимацию стамбульской больницы Şişli Hamidiyə Etfal Tədris və Araşdırma Xəstəxanası.

Примечательно, что расправа над Джаниевым была устроена в третью годовщину со дня убийства в Стамбуле другого азербайджанского «законника» Алибалы Гамидова по кличке Годжа.

«На этом война не закончится, — полагает собеседник агентства. — Следующим наверняка станет Мераб Джангвеладзе, по его следам уже идут киллеры. Как только порог тюрьмы переступит Джемо (Джемо Микеладзе, сейчас ожидает экстрадиции из РФ в Италию — «Росбалт»), его тоже может настичь пуля. По Таро вопрос отдельный».

Əvvəlcə Rövşənin kürd terrorçuları tərəfindən öldürüldüyü ehtimalları söylənilirdi.

“Rövşən Lənkəranski”nin Türkiyədə qətlə yetirilməsi gündəmin əsas mövzusu olaraq qalır. Onun ölümü ilə bağlı ekspertlər müxtəlif versiyalar irəli sürürlər. Ən çox hallanan versiya kimi “Rövşən Lənkəranski”nin yezidi kürd olan “Ded Xasan” ləqəbli Aslan Usoyanın qətlinin təşkilinə görə güllələbaran edildiyi göstərilir.

Hazırda “Rövşən Lənkəranski”nin qətli ilə bağlı yaranmış situasiya 3 il əvvəl “Ded Xasan”ın qətlindən sonra yaranmış vəziyyəti xatırladır. Rövşənin qətlinin sifarişçilərinin kimlər ola biləcəyi haqda versiyalar var, amma konkret ittiham irəli sürmək hələ tezdir.

Rövşən avqustun 17-dən 18-nə keçən gecə İstanbulun Beşiktaş rayonundakı Barbarossa bulvarında qətlə yetirilib. İki naməlum şəxs səsboğucusu olan tapança və avtomatla lüks hoteldən çıxaraq “Range Rover” markalı avtomobilə əyləşən “Lənkəranski”nin olduğu maşını atəşə tutub. Avtomobilin salonunda həmçinin sürücü və cangüdən olub. “Rövşən Lənkəranski” və sürücü hadisə yerində ölüb, cangüdən isə yaralanıb. Atəşə tutulan avtomobilin sahibi Bakıda biznesi olan Tahir Can soyadlı Türkiyə vətəndaşıdır. Türkiyə KİV-i artıq Tahir Canın istintaqa ifadəsini yayımlayıb.

Qətldən sonra saxlanılan 4 nəfərdən biri olan T.Can Türkiyədə önəmli iş adamlarından sayılır. İfadəsində isə Tahir Can R.Canıyevin qardaşı Namiqlə Bakıda qonşu və dost olduğunu, Rövşənlə də qardaşı vasitəsilə tanış olduğunu bildirib. T.Can qeyd edib ki, "Rövşən Lənkəranski" həmin gün onun qonağı imiş və birlikdə yeməyə gediblər.

O gün isə Dubaydan gələn qonaqları ilə (həbs olunan digər üç avtoritet) görüşən "Rövşən Lənkəranski" Tahir Canın idarə etdiyi avtomobildə ön sırada oturub, hərəkət edərkən, maşın sağ tərəfdən atəşə tutulub. Ağır yaralanan "Rövşən Lənkəranski"ni sol (yəni sürücü) tərəfdən dartıb çıxaran və təcili yardımdan öncə taksiyə qoyaraq, xəstəxanaya göndərən məhz Tahir Candır. T.Can isə sol tərəfdə olduğundan az xəsarət alıb. Digər yaralı isə R.Canıyevin mühafizəçisidir və "Lənkəranski"nin arxasındakı oturacaqda əyləşdiyindən güllələrdən bir neçəsi ona dəyib və onun hazırda ağır yaralı olduğu bildirilir.

Olaydan sonra türk mediasının şahid ifadələrinə dayanan "sürücü öldürüldü" xəbəri sırf Rövşən sürücü tərəfdən avtomobildən düşürüldüyü üçün meydana çıxıb. Sürücü Tahir Can olub, avtomobil də onun oğlu F.Cana aiddir. Qeyd edək ki, Tahir Can və digər üç avtoritet hazırda İstanbul polisindədirlər və onlar qanunsuz silahdan istifadə etməkdə ittiham edilirlər. Onu da bildirək ki, Azərbaycan mediasında Tahir Can hotellər sahibi və nəqliyyat daşımaçılığı ilə məşğul olan şəxs kimi təqdim edilib. T.Can uzun müddətdən bəri Azərbaycanda hər hansı bizneslə məşğul olmur. Digər 3 şəxs isə "Hacı Beyləqanski" (Hacıbaba Tahir oğlu Talıbxanlı), "Zaur Sumqayıtski" və "Vahid Bakinski"dir. Saxlanılan "Zaur Sumqayıtski" 30 yaşlı Zaur İsayevdir. Daha əvvəl İsayevin adı mediada hallanmayıb və ona görə də o, çox məşhur deyil. Bununla belə, o, "Rövşən Lənkəranski"nin əmrlərinin icraçısı kimi tanınır.

"Rövşən Lənkəranski"nin öldürüldüyü yerdə Rövşən Əliyev ad-soyadının qeyd olunduğu pasport tapılıb. "Ded Xasan"ın ölümündən sonra Türkiyəyə köçən "Lənkəranski" orada bu soyadla yaşayıb. Çünki İtaliya hökumətinin təşəbbüsünə əsasən İnterpolun xətti ilə onun haqqında çirkli pulların yuyulması ittihamı əsasında beynəlxalq axtarış elan edilib. Bu saxta pasportla "Rövşən Lənkəranski"ni bir neçə dəfə Kiyevdə saxlayıblar

"Lənkəranski"nin ölümündən sonra onun sayıqlığını itirməsinin qurbanı olması haqda fikirlər dolaşmağa başlayıb. Rövşənin çoxsaylı düşmənlərinin olmasına baxmayaraq, xüsusi qoruma altında, zirehli maşında gəzməməsi çoxlarını təəccübləndirib. Əslində"Rövşənin istifadəsində zirehli maşını olub. 450 min dollara alınmış maşın bir neçə ay əvvəl Azərbaycan ərazisində saxlanılıb. Həmin zirehli avtomobilin sürücüsü də formal əsasla istintaqa cəlb edilərək saxlanılıb.

Qətl baş verən gün Rövşənin ailə üzvləri onun yanında olublar. Rövşən yaşadıqları evdən çıxarkən ailəsinə bir azacıq işi olduğunu və uzağı bir saata qayıdacağını söyləyib. Ailəsi onun təcili gedişindən nigaran qalıb. Amma onun həyat şərtlərini bildikləri üçün tez-tez "işim var"a vərdiş ediblər. Bir neçə gün idi ki, ailəsi Rövşənin yanında idi".

"Rövşən Lənkəranski" həmişə evdən ayrılanda qapını kilidləyirmiş. Efirdən qətl xəbərini eşidən ailəsi qapı kilidli olduğuna görə heç bir yerə çıxa bilməyib. "Lənkəranski"nin qaynına zəng edilib və o, həmin mənzilə gələrək qapını açıb. Daha sonra qardaşı Namiq Canıyevə məlumat verilib və o elə həmin gecə İstanbula uçub. Ertəsi gün axşam çağı "Lənkəranski"nin cənazəsi Türkiyədə tanınan azərbaycanlı iş adamı, "Palmali" Şirkətlər Qrupunun rəhbəri Mübariz Mənsimovun təyyarəsində Lənkərana gətirilib.

Dostu A. Mərdəkanskinin xatirələrindən:

- Mən Rövşənlə həm kiçmanda, həm də bayırda xlebnik, kent olmuşam. Mən də onun kimi atamın qisasını alaraq kiçmanda oturardum.

Rövşən atasını canından da çox sevirdi. Birlikdə dərdləşəndə gözlərini məchulluğa zilləyərək danışırdı dostum...

– Atam axirət dünyasına gedəndən sonra onun ruhunu həmişə başımın üstündə hiss etmişəm, - deyirdi. - Başımı onun cənazəsinə söykəyib ağlayanda Allahla mənim aramda vasitəçi olan atamı nə qədər çox sevdiyimi dərk etdim. Cismən məndən ayrılsa da, ruhən həmişə mənimlə olub atam. Məhkəməyə qədərki dövrdə elə bir gün olmayıb ki, onun ruhu ilə danışmayım.

Ayrılıq yamandır, əhdimi kəsir,
Xəyalın gecələr yuxumda gəzir.
Mən qarşı gedirəm, osa pərişan,
Bilməm niyə qaçır, hara tələsir?
Dinim, bərəkətim, çörəyim ata!
Həyat qübbəsinə dirəyim ata!

Nəğmədən bir çələng hörə bilsəydım,
Ömrümdən ömrünə verə bilsəydim,
Səni xəyalımda yaşatdığım tək,

Bir an deyib – gülən görə bilsəydim,
Bir təpər tapardı ürəyim ata,
Dinim, bərəkətim, çörəyim ata!

Rövşən danışırdı:

"Əllərimi asimana sarı qaldırıb dua edərdim: " Ya göylərin mehriban və mərhəmətli atası! Mənim ruhumu pak elə! Öz bəndənə xeyir-dua ver! Mən sənin köməyinə arxalanan, gələcəyi duyan, vicdanı təmiz bəndəyəm. Sənin yaratdığın canı özündən savayı kimsənin almaq ixtiyarı yoxdur. Amma mən artıq dörd ildir beynimi cırmaqlayan qisas hissindən qurtula bilmirəm. Bu fikri sən mənim beynimə yeritmisən. Hansı əzablar, məhrumiyyətlər bahasına olursa olsun, qisasımı almalıyam, ya Pərvərdigar! Sən məni xeyirin şər üzərində qələbəsinin silahı qismində gör, mənə atamın məzarı üstündə verdiyim andı yerinə yetirməyə kömək et! Yaratdığın kainat eşqinə sənə müraciət edirəm!

Mən duamı qurtarıb gözlərimi açanda yarımqaranlıq otaqda sanki bahar günəşi parlayardı. Hiss edərdim ki, gözlərimə işıq, bədənimə qüvvət, beynimə aydınlıq gəldi.

... Və mən bu auranı göylərin razılığı kimi qəbul edərdim".

Ömrümün baharı, cavan çağları,
Boranlı, tufanlı keçdi, atacan!
Çəkildi sinəmə hicran dağları,
Bağrımın başını deşdi, atacan!
Nə qədər ürəyi tutdumsa dilə,
Gah bəmdən inlədi, gah keçdi zilə.
Günlər aya döndü, aylar da ilə,
Qəlbi qisas hissi biçdi, atacan!

...1996-cı ildə Quliyevin məhkəməsi zamanı müttəhim son sözünü söyləyərkən məhbəsdən buraxılandan sonra Rafiq Canıyevin bütün qohum əqrəbasını – nəslini məhv edəcəyini bildirəndə, Rövşən ayağa qalxıb anasının çantasından çıxardığı tapança ilə müttəhimə dörd dəfə atəş açaraq qisas alır. Güllələrdən üçü Quliyevə dəymişdi. Rşvşən tapançanı hakimin stolu üstünə qoyaraq sakit səslə: "Atasının qatilindən intiqam almağı düşünməyən kəs nə ana-bacı, nə də vətən qeyrətini çəkə bilər. İndi məni ədalətlə mühakimə edin. " – demişdi.

Bəzi adamlar deyirlər ki, tapança onun polisdə işləyən dayısınınkı olub. Məntiqsiz mülahizədir. Uzağı səhərisi gün dayısını həbs edərdilər... 1992-93-cü illərdə ölkədə tüğyan edən xaosda nəinki tapança, hətta "Kalaş" da almaq mümkün idi.

21 yaşlı Rövşənin məhkəməsi zamanı dövlət ittihamçısı onun əməlini 12 illik həbs cəzası ilə qiymətləndirsə də, hakim müttəhimin cinayət törətdiyi vaxt affekt vəziyyətində olduğunu, gəncliyini və təqsirini səmimiyyətlə etiraf etdiyini nəzərə alaraq, onu cəmi 2 il müddətinə cəzalandırmaq haqqında qərar çıxarır.

İki il günə-gün oturduqdan sonra azadlığa çıxan Rövşən artıq gələcək həyatının hansı cığırla davam edəcəyini qət eləmişdi. O, qanuni oğruların saldıqları yola qədəm qoymuşdu.

# QANUNİ OĞRULARIN DAVRANIŞI

Mirseymur Abdullayevin deyimindən:

"Qanuni oğru güclü şəxsiyyət, xarizmatik liderdir və onun hər addımı kriminal aləmin gözü qabağındadır. Rövşəndə bu məziyyətlərin hamısı var".

- Cinayət dünyasını təşkil edən iki məfhum var ki, onları bir-birindən ayıra bilmək lazımdır, - deyirdi rəhmətlik Mirseymur Pövşənə. - Cani ilə cinayətkarı fərqləndirə bilməyin cinayət aləmində sənin üçün bir bələdçiyə çevrilər. Allah biz insanları elə yaradıb ki, vəhşilik hər birimizin daxilində var. Bu, labüddür. İçində vəhşilik olan insan isə həyatda üç şəkildə zühur edir:

Vəhşiliyi boğub ram etməyi bacaran insanlar, bunu özündə hiss etməyənlər və daxilindəki vəhşiliyi boğan, lakin ram edə bilməyənlər.

Bu üç növ cinayət aləminə də aiddir və cani ilə cinayətkarın formalaşmasında həlledici rol oynayır. Oğru əqidəsində cinayətkar o şəxsdir ki, vəhşiliyi öz içində ram etməyi bacarır, metlası (dili) ilə bütün işlərini səhmana salır.

Cani isə elə bir ünsürdür ki, özü bu vəhşi hisslərin təsirindən alətə çevrilir. Caninin törətdiyi əməl - qətllər, manyaklıq, terrorçuluq və digər vəhşiliklər olur.

Cəmi iki halda baş verən qətllər və vəhşiliklər, istər peşəkarlar törətsin, istər qeyri-peşəkarlar, bu qəbildən sayılmır: birincisi, milli mentalitet və xüsusiyyətlərdən irəli gələn hadisələrdir. Məsələn, vətən yolunda qan tökmək, qeyrət, namus məsələləri, intiqam və bu qəbildən olan digər hallar.

İkincisi isə, ruhi xəstələrin törətdiyi hadisələrdir. Sadaladığım iki haldan kənarda da qətllər törənə bilər ki, bu da bilavasitə peşəkarların buraxdığı səhvlər ucbatından baş verir. Hər bir belə hal çox ciddi və dəqiq araşdırılmalı, onun cinayət və yaxud vəhşilik, cani əməli olması barədə ayrıca hökm verilməlidir.

İdeya, yol və məqsəd məlum olduqda, bu ideyaya qulluq edən, bu yolu gedən və bu məqsədə can atan insanların meydana gəlməsi zəruriliyi yaranır. Oğru olmaq üçün insan barədə iki qərar verilməlidir. Bu qərarlardan biri şəxsi olur. Yəni, hər bir şəxs özü barədə daxili qərar çıxarır. Rövşən "cinayət aləminə, "naş mir"ə qədəm qoyduğu ilk gündən şəxsi qərarını vermişdi. Heç nahaqdan deyildi ki, Mirseymur onu "vrajdyonnıy vor" (anadan oğru doğulan), Sabirabadlı Hikmət isə "Kristal" adlandırırdı.

İkinci qərar isə şəxsiyyətlərin onun barəsində çıxardığı qərardır. Mirseymur və Hikmətdən savayı Pövşən barəsində onu əvvəllər həmişə öz yetirməsi kimi təqdim edən Ded Xasan da tərifnamələr söyləməkdən çəkinmirdi: "Lənkəranski Pövşən oğru Olimpinə doğru yüksələn pilləkəni iki-iki, üç-üç qalxır"- demişdi. Aralarında böyük yaş fərqi olmasına baxmayaraq, Yaponçik, Tariel Oniani və başqa klassik zakonniklər Rövşəni ilk görüşdən sonra özləri ilə eyni müstəvidə dayanan oğru kimi qəbul edir, - "kurs qoymaqla Lənkəranski özü barədə çıxarılan müsbət qərara iddialı olduğunu birbaşa göstərir", - deyirdilər.

Rövşənin deyimindən:

Əgər həyatın məqsədi əbədiləşməkdirsə, deməli, insan ən ümdə vəzifə kimi öz əqidəsini kamilləşdirməlidir. Oğru-kütlə münasibətlərində yalnız iki tələb var: birincisi, özünü tanıtmaq, yəni, "priznanie", ikincisi, mövcud qanunlar çərçivəsində özbaşınalığa, yəni "bespredel"ə yol verməmək. Bu iki məsələ vacibdir. Amma bununla yanaşı oğru kütlələrdə rəğbət, sadiqlik, vəfa, etibar və bu kimi başqa gözəl keyfiyyətlər yarada bilərsə, demək ömrünü əbədiləşdirilən insanlar qismində yaşamış olacaq. Bu isə fiziki ölümündən sonra əbədiləşdirilməyin qarantına çevrilər. Mənim üçün Hikmət, Mirseymur həmin insanlar qismindədir.

Baş əymədi yaltaqlara, düşmənlərə Rövşən,
Arxa-dayaq oldu təmiz insanlara Rövşən.
Fəxr eyləyirik sən kimi qiymətli oğulla,
Dünyaya gərəksən, qanan oğlanlara Rövşən.

Rövşən barəsində Novxanılı Əliqardaş da ürək sözlərini gizlətmirdi. Əliqardaş oğrular tərəfindən taclanmasa da, ümumin fikrinə əsasən oğru sayılırdı. O, bütöv bir ömrünü oğru qanunları çərçivəsində yaşa da, oğru adına iddia etmədiyini bildirmişdi. Belə şəxslər "po mneniyu", yəni, ümumun fikrinə əsasən oğru sayılır. Amma iddia etmədiyi üçün barəsində qərar çıxarılmayıbsa, o, "po reşeniyu" oğru sayıla bilməzdi. Deməli, cəmiyyət belə insanı oğru kimi qəbul edir, amma bu şəxsin oğrular arasında səsi yoxdur. Belə vəziyyətdə oğrular həmin şəxsin iddia etməməsinin səbəblərini araşdırdılar. Bunun səbəbi alicənablıq, ləyaqət, təvazökarlıq, adın onun üçün heç nəyi dəyişməyəcəyinə əminlik idi. Oğru elitası Əliqardaşa qanuni oğruya verilən bütün güzəştlərin ayrılması barədə qərar çıxarmışdı. Ona barəsində qərar çıxarılmış oğru kimi baxırdılar. Bu güzəştlər və imtiyazlar nədən ibarətdir? Oğru yığıncaqlarında iştirak etmək, səs vermək, oğruya aid olan bütün sirlərin ona açılması və s.

Əliqardaş deyirdi:

– Cinayət aləmində staj deyilən bir anlayış yoxdur. Oğruların heç birinin stajı olmayıb. Əgər insan dünən işverənlik edibsə, deməli, anadan qnida doğulub, öləndə də kaftar kimi də gəbərəcək. Oğru da elədir, anadan olandan ölənə kimi oğru olur. Oğrularda belə bir ifadə var: "ot kolıbeli do qroba", yəni, "beşikdən məzaradək". Beləliklə, insan oğru tacını daşımağa razı olubsa, daha onun geriyə yolu yoxdur. Pövşən anadan oğru əqidəsilə doğulub. Belə ponyatka ilə doğulanlardan biri də rəhmətlik Dağlı Ələddin idi. O da Rövşən kimi lap gənc yaşlarında "tac" sahibi olmuşdu.

Tab eylədi çox zülmə o, dünya sınağında,
Mərdlər kimi addımladı namərdlər qabağında.
Qürbətlərə düşdü o, ədalət sorağında,
Güc gəldi çətinliklərə, tufanlara Rəvşən.

26 iyun 2000-ci ildə Bakının Milli parkında atəş səsləri eşidildi. Az sonra televiziya xəbərlərində Rövşən Canıyevin Azərbaycanda böyük avtoritet sahibi Kəramət Məmmədovu güllə ilə ağır yaraladığı barədə xəbərlər səsləndi...

Kəramətin adamları Rövşəni izləyərək tuturlar və möhkəm döyürlər. Nəticədə Canıyev beyin silkələnməsi diaqnozu ilə xəstəxanaya düşür. Güllə yaraları alan zərərkəçmiş bir neçə həftədən sonra sağalmışdı. Canıyevi isə məhkəmə psixi ekspertizaya göndərmək haqda qərar çıxarır. Avqustda keçirilən ekspertiza rəyində göstərilirdi ki, Rövşənin psixi dispanserdə müalicəyə ehtiyacı var. Oktyabra qədər psixiatriya klinikasında müalicə kursu keçən Canıyevi sonradan Ağır İşlər üzrə Məhkəməyə gətirirlər və hakim müttəhimin hələ tam sağalmadığını bildirərək onun yenidən dispanserə qaytarılmasının vacib olduğu qərarını çıxarır. Az sonra Canıyevin dispanserdən qaçdığı haqda xəbərlər yayılır.

Belə danışırlar ki, Rövşəini həmin il Nardaranlı Mirseymur və Ded Xasanın dəstəsindən olan bir neçə qanuni oğru "tac"layıblar. Hələ o vaxtlar kriminal aləmdə böyük nüfuza malik Mirseymur Abdullayev Rövşənin klassik oğruların əqidəsinə sadiq ən cavan stremlyayuşiy olduğunu bəyan etmişdi.

Qızıldış Mamedin xatirələrindən:

O dövrdə Mirseytmur Moskvada, Surqutda, Uralda, İrkutskda, Novosibirskdə ağlına, bacarığına, düzgünlüyünə görə ən hörmətli oğrulardan sayılırdı. Blatnoylar arasında söz-söhbət gəzirdi ki, Nardaranski o vaxtlar bütün Sibirdə böyük nfuz sahibi olan Ded Xasanın sağ əlidir. Konfliktli elə bir söhbət olmazdı ki, Mir Seymursuz razobrat oluna. İvankovun Sibirdəki smotryayuşisi sayılan Soloma Moskvada olarkən ilk növbədə Mirseymurla görüşə gedər, yeniliklərlərdən xəbər tutar, məslhətlər alardı. Moskvadakı oğruların hamısı Nardaranski ilə hesablaşırdı. Həmin vaxtlarda mən İrkutskda yaşayır və Soloma və Sibir Sabirlə curluq, yoldaşlıq edirdim. Mirseymur da Sibirə yolu düşəndə mütləq Sibir Sabirin xatasına gələr, orada Saloma ilə görüşərdi. Həqiqətən də Mirseymurla oturub söhbət etmək bəs edirdi adama. O qədər ağıllı, mədəni söhbətləri vardı ki, saatlarla ona qulaq asmaqdan doymazdıq. İrkutskda kolonda baş verən bir hadisədən sonra ona olan hörmətim bir idisə, min oldu. Bizim zonda o illər belə bir polojeniyaydı ki, dustaqlar

ərazilərə görə bir neçə qrupa bölünmüşdülər – ruslar, gürcülər, çeçenlər, orta asiyalı qıyıqgözlülər, ermənilər, pribaltlar... Bir sözlə, bölgə qruplaşmaları vardı. Edik adlı bir dustaq vardı, o, başlamışdı millət nifaqı salmağa, mujiklərdən pul yığaraq özləri üçün obşaq yaratmaq istəyirdi. Bir sözlə, ortaya nifaq salırdı. Sən demə, tutulanadək həmin Edik milisdə işləyibmiş. Edikin hərəkətləri necə olmuşdusa, həmin vaxt Novosibirskdə olan Mirseymura çatmışdı. Günlərin birində Mirseymur, Anzırski Bayram və Kolya Samarski gəldilər bizim zona. Mirseymur Ediki oturtdu söhbətə. Sakitcə sübut elədi ki, zonda belə axmaq söhbətlər aparmaqdan, uşaqları bir-birinə vurdurmaqdan əl çəksin. Bir adam ki, sistemdə işləyib, onun obşakla nə işi? Edik Mirseymurun onun haqqında əsaslı məlumatı olduğun göryb: “Mən vur-tut bir həftə poqon gəzdirmişəm” deyəndə, kurilkada oturanları gülmək tutdu. Yerindən sıçrayıb vaxtaya qaçmasaydı, Edikin pişiyini hansı divara dırmaşdıracaqlarını təsəvvür edin. Həmin andan sonra Ediki zonda görən olmadı. Ondan sonra zonda milli məsələyə görə davalara son qoyuldu...

Moskvada çörəkpulu qazanmağa gələnlərin nə problemi vardısa, ya Hikmət Sabirabadskinin, ya da Mirseymurun üstünə gedirdi. Bilirdilər ki, nə məsələ olsa, ədalətlə həll edəcəklər.

2003-cü ildə Şolkovskoe şosesində yerləşən “Peşera” kafesində müəmmalı şəkildə qətlə yetiriləna qədər Mirseymurla Rövşən ən yaxın dostlar kimi ad cıxarmışdılar. Sabirabadlı Hikmət və Ağbaş Çingizin qətllərindən, Baxış Əliyev və Vaqif Süleymanovun həbslərindən sonra Rövşən azərbaycanlıların Moskvadakı nüfuz sahələrinə nəzarət etməyə başladı. Cavan olmasına baxmayaraq, Canıyevin qrupları Sankt-Peterburqda, Sibirin bir neçə iri şəhərlərində və Ukraynada nüfuz dairəsi yaratmağı bacarmışdılar. 2003-cü ilin iyulunda “Apelsin” boulinq-klubda Elçin Yevlaxskinin qətlə yetirilməsini bəzi antirövşənçilər Canıyevin üstünə yaxıb ləkələməyə girişsələr də, kələkləri baş tutmadı. Bu qətllə əlaqədar olaraq Canıyevi 2004-cü ilin dekabrında Moskvada saxladılar. Rövşən alibilərini ortaya qoyaraq bulanmış sudan quru çıxdı.

Moskvada və Rusiyanın böyük şəhərlərində keçirilən sxodkalarda Lənkəranski mütəmadi olaraq iştirak edir, nüfuzlu avtoritetlərlə ünsiyyət qurur, müntəzəm şəkildə məhbəslərə “qrev” göndərirdi. Hələ 30 yaşı tamam olmasa da, klassik vorlarla oturub-durur, onların əqidəsində olduğunu göstərirdi.

O Vasya Brilyantın bütün oğrulara verdiyi məsləhəti həmişə təkrarlayırdı: “Həmişə düzgün danışmaq lazımdır. Çünki yalnız düzgün danışan onqat yoxlamadan üzüağ çıxar. Düzünü danışan adam həmişə azaddır”.

(“Vseqda nucno qovoritğ pravdu. Potomu çto, tolğko pravda mocet vıderjatğ mnoqokratnuö proverku. Çelovek, kotorıy qovorit pravdu, vseqda svoboden”. Vasya Brilyant).

Vurdu yalandan danışan şəxsi diliynən,
Qaldırdı yıxılmışları qüvvətli əliylə.
Düzgünlüyü etdi sübut düz əməliylə,
Yazdı adını tarixə, dastanlara Rövşən.

2006-cı ildə Kutaisi klanının Moskvada keçirdiyi sxodka iştirakçıları MUR əməkdaşları tərəfindən saxlanılanda Rövşən də Petrovka-38-ə gətirildi. Həmin vaxt Lənkəranski beynəlxalq axtarışda olsa da, saxta sənədlər sayəsində həbsdən yaxa qurtara bildi.

# BASMANOV BAZARINDA FACİƏ

2006-cı il işgüzar görüşlər və faciəvi yaşantılar ili oldu. Fevral ayının 23-də səhər tezdən Moskvanın Bauman küçəsindəki Basmanov bazarında faciə baş verdi. Əsasən azərbaycanlı satıcıların çalışdığı yarmarkanın dam örtüyü göy gurultusunu xatırladan səslə uçdu və fəryad, inilti, nalə hayqırtıları bir birinə qarışdı. Uçuntu zamanı bazarda 500-ə yaxın adam olduğu barədə söz-söhbət gedirdi. Hadisədən az sonra hadisə yerinə gələn Sabirabadlı Hikmət, Ağbaş Çingiz, Anzırlı Bayram və Lənkəranskinin səyləri nəticəsində şəhərin Fövqaladə Hallar Nazirliyinin xilasedicilƏri dağıntılar arasında qalan yaralıları və cəsədləri çıxarmağa başladılar.

Moskva şəhərinin meri Yuri Lujkovun hadisə yerinə gəlişi çaxnaşmanı bir qədər də artırdı. Lujkov maşından düşən kimi yaxında dayanaraq göstərişlər verən Hikmətin dəstəsinə yanaşdı.

İlkin məlumatlara görə ölənlərin sayı 60 (altmış) nəfərə yaxın (onların arasında bir azyaşlı uşaq da vardı), yaralıların sayı isə daha çox idi. Yaralıların əksəriyyəti kəllə-beyin zədələnməsi, qol-qıç, fəqərə sınıqları və qorxudan şok vəziyyətinə düşmə diaqnozları ilə avtoritetlərin təşkil etdikləri maşınlarda Moskvanın 36, 29 və 33 saylı xəstəxanalarına aparılırdı. Xəstəxanalara baş çəkən azərbaycanlı avtoritetlər artıq həkimlərlə görüşmüş, yaralılar üçün lazımi şəraiti yaratmışdılar.

Bir qədər sonra xəbər yayıldı ki, Moskva şəhər prokurorluğu fövqaladə hadisə ilə bağlı cinayət işi qaldırıb və onun icazəsi olmadan ölənlərin cənazələri doğmalarına verilməyəcək.

Sabirabadlı Hikmətlə Rövşən Lənkəranski prokurorluğa ağız açmaqdansa, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu ilə görüşə görüşməyi daha vacib sayaraq səfirliyə yollandılar. Bəstəkar-müğənni artıq prokurorluqla bu məsələ barədə əlaqə yaratdığını, lakin bir sıra problemlərin olduğunu söylədi. “Problemlərin başlıcası ondadır ki, soydaşlarımızın Moskvada qeydiyyatı yoxdur. Siz çalışın ki, lazımi sənədləri hazırlasınlar”. Səfir onu da qeyd etdi ki, dünyalarını dəyişən həmvətənlilərimizi lazım olunan konsulluq vergisindən azad edib.

- Soydaşlarımızın cəsədlərini vətənə gətirilməsi üçün lazım olan işləri dövlət öz üzərinə götürüb,- deyə səfir davam etdi. – Bu məqsədlə ölkə başçısının göstərişi ilə təyyarələr də ayrılıb. “Azal” Dövlət Konserninin vitse-prezidenti Sabir İlyasov 10 ədəd yük təyyarəsi ayrıldığını bildirib. Məndə olan məlumatlara görə, ölənlərdən 43-ü azərbaycanlıdır, faciədə yaralanan 33 nəfərdən isə 23-ü soydaşlarımızdır. Rusiya hökuməti həlak olanların ailələrinə 100 min, yaralanlara isə 50 min rubl ödənilməsi barədə qərar qəbul edib.

Cənazələri yola salanadak Hikmət, Rövşən, naxçıvanlı Bayram, lənkəranlı Ağbaş Çingiz yuxunun, yeməyin, istirahətin nə demək olduğunu unutmuşdular. Faciənin terror, yaxud ayrı-ayrı fərdlər tərəfindən törədilməsi versiyaları üzərində baş sındırır, digər səbəblər diqqətlə araşdırılırdı. Hadisə yerinə gələn Moskva şəhərinin meri Yuri Lujkov da avtoritetlərlə həmrəy idi və: “ Hesab edirəm ki, istənilən halda günahkar var və onun törətdiklərinə cavab verəcəyinə əminəm” – demişdı.

Sabirabadlı Hikmətin versiyasına görə, faciə terrorçuların əməli idi. Həmin günlərdə Rusiya prezidenti Putin iki gün Azərbaycanda qalmaqla bir sıra işgüzar görüşlər keçirmişdi. Bu görüşlər 1991-ci ildən indiyədək Azərbaycan və Rusiya prezidentləri arasında keçirilən görüşlərin ən uzunmüddətlisi və ən səmərəlisi idi. Hikmətin fikrincə, Rusiya prezidenti və 500-dən artıq iş adamının Azərbaycana səfəri üzdəniraq qonşularımız erməniləri bir ovuc fındıq qabığı üzərində oturan adam kimi qurcalanmağa məcbur etmişdi.

Cənazələrlə yüklənmiş təyyarələri yola salarkən Rövşən yorğun və pərişan səslə:

- Bu gün bizim üçün ən faciəli günlərindən biri – Xocalı soyqırımı günüdür... – dedi. – Həmin, 1992-ci ildə mən dünyada ən əziz, yaradanla mənim aramda vasitəçi olan atamı itirmişəm. 92-ci il qəlbimdə qaysağı qurumayan yaradır, – dedi. – Basmanov faciəsinin təqsirkarları mütləq cəzalarını almalıdırlar!

# ACI XATİRƏLƏR

Bir ay sonra Canıyev yenidən az qala Mütəşəkkil Cinayət Dəstələrinə qarşı Mübarizə İdarəsi əməkdaşları tərəfindən saxlanılacaqdı. “Lujniki” idman kompleksi sahəsindəki qapalı klubda düzənlənən sxodka dağıdılarkən Vyaçeslav İvankov, Mixail Voyevodinlə yanaşı Rövşən Lənkəranski də operativniklərə müqavimət göstərərək aradan çıxmışdı.

Həmin dövrdə Canıyevin dəstə üzvləri “Çerkizov” bazarına nəzarət edirdilər.

Azərbaycanlılar əsasən Moskvanın bazarlarında meyvə - tərəvəz biznesi ilə məşğul olurdular. Moskva və onun ətrafindakı bazarlarda realizə olunan meyvə - tərəvəzin 50 faizi onların payına düşürdü. Məsələn Belozavodskiy rınokda gəncəlilər, Çeryomuşkinoda ordubadlılar, Rijskiy bazarda maştağalılar və bakılılar... və sairə. Paralel olaraq azərbaycanlılar girdirmə araq-çaxır məmulatları satışından da xeyli gəlir götürürdülər. Bu bizneslə məşğul olanlar əlbəttə ki, həm QUVD, həm prokurorluq, həm də FSB cinovniklərini yaxşıca “qızdırırlar”. “Qrev” bircə gün gecikərsə, meşin qapılar arxasındakı kabinetlərdə yumşaq kreslolarda əyləşən bədənlərə vic-vicə düşür və bazarları, cexləri “oblava”lar bürüyür, lisenziyaların, sertifikatların, xam malın haradan gətirilməsi yoxlanışları başlayırdı. Əgər burada hər şey qaydasındadırsa, işçi personalın sənədləri araşdırılır, qeydiyyat... və sair, və ilaxır...

Rövşən Lənkəranskini yaxşı tanıyan, onunla birlikdə Psixoloji Dispanserdə müalicə kursu keçən, Moskvada birlikdə iş görən avroritet Amilin söhbətlərindən (söhbət 2010-cu ildə baş tutub):

– Rövşən məndən iki yaş cavan olsa da, ondan çox şey öyrənmişəm. O da mənim kimi atasının qisasını aldığına görə qazamata düşüb. Mən oğrular aləmində çoxlarına hörmət bəsləmişəm, amma öz dünyamda Rövşən Lənkəranskini hamıdan üstün tütmuşam. İndi onun 35 yaşı var, amma onunla Deduşka Xasan hesablaşır ( söhbət 2010-cu ildə baş tutub), fikrini bölüşür. Allah ona can sağlığı versin, yəqin bilirəm ki, 40 yaşında vsemirnıy zakonnik olacaq. Rövşən Kiyevdə həbs olunaraq Azərbaycana ekstradisiya olunub. Qafqazlı qanuni oğrular arasında böyük nüfuz, hörmət sahibidir. Qəzetlər yazırlar ki, guya Rövşən dövlət işinə müdaxilə etdiyinə görə içəri götürülüb. Ağ yalandır! Qanuni oğrular heç vaxt hökumət işinə, siyasətə girişmirlər. Guya Lənkəranskinin adamları oliqarxlardan bac-xərac tələb ediblərmiş və əks təqdirdə dodik qətlə yetiriləcəkmiş. Hamısı iftiradır! Bəzi məlumatlara görə isə, guya Rövşənin yerini Yaponçikin adamları nişan verərək həbs etdiriblər. Bu da uydurmadır.

Allah onu yer üzünə oğru gətirdi,  
Oğru həyatı da bu dünyayla birdi.  
Əfsus ki, bu yolda neçə qardaşlar itirdi,  
Dözdü nə qədər həsrətə, hicranlara Rövşən.

Cavan olmasına baxmayaraq, Lənkəranski olduqca ponyatkalı, geniş dünyagörüşlü, xeyirxah insandır. Onunla mənim fikirlərim həmişə üst-üstə düşüb. Yəni onunla oturub məsləhətləşəndə demişəm ki, bu iş belə olmalıdır, Rövşən də təsdiqləyib. Moskvada, Vıxino bazarında yetimin, yazığın birinə şillə vurmuşdular. Başqası olsaydı fikirləşərdi ki, ayə, mən nüfuz sahibi, oğruyam, nəyimə lazımdır ki, kartofsatana şapalaq vurublar... Belə deyil. Rövşən vətən oğluna edilən bisafçılıq yolunda canını da qurban verməyə hazır olan oğlandır. Qaça-qaça həmin yerə yollandı ki, görüm mənim həmvətənlimə niyə şillə vurublar. Onunla oturmaq, onunla ünsiyyət qurmaq, onun səsini dinləmək adama zövq verir. O, çox ağıllı, savadlı, işgüzar adamdır! Onun başı işləyir, əli işləyir, cibi də işləyir! Bir şəxsiyyətdə ki, hər üç arqument işlədi, onunla bacarmaq çətindir! İndi Kürdəxanıdakı qazamatdadır. Allahtanıyan insandır. Göydə Allah, yerdə oğru qanunu!- prinsipi ilə yaşayır.

– Adam vurmaq asandır, - Amil söhbətinə davam edir. – Amma bunun sonrakı Allah qarşısında cavabdehliyi, vicdan hissləri qarşısında əzabları, cəmiyyət qarşısında haqq-hesabı var. Atamın qatilindən savayı öz uşaqlıq

dostumu da vurmuşam. Əgər mənim kiminləsə konfliktim, ciddi problemim olsaydı, Kentim (adını çəkməsəm yaxşıdır) həmin adamın kimliyindən asılı olmayaraq, onu cırıq-cırıq edərdi. Amma çox şuluq, özbaşına adam idi Kentim. Mənə xoş gəlsin deyə özünü göstərməyə çalışırdı. Özünə altı nəfərlik dəstə toplamışdı və yaramaz işlərlə məşğul olurmuş. Payız günlərindən birində eşitdim ki, onu mentovkaya çağırıblar və orada saxlayıblar. Yuxum ərşə çəkilmişdi. Xörək bişitdirirəm, bahalı siqaretlər, delikates ərzaq alıb gedirəm onun görüşünə... And içir, qan qusur ki, bu işdə mən yoxam. Üç gün sonra bəlli olur ki, həmin dəstə həqiqətən uşaq oğurluğu ilə məşğul olubmuş və "paravoz" da Kentimdir. Mən tələsik 50-60 nəfərlik bir toplanış təşkil edib uşaq oğrularını söyməyə, yamanlamağa başlayıram və haqq səsimi ucaldaraq deyirəm ki, bu işdə bir addım da kənara qoyan deyiləm. Uşağın nə təqsiri var ki, bu işdə əzab-əziyyət çəksin? Uşaq oğurluğu işinin bünörəsi Moskvada qoyulub. Hələ 20 il əvvəl, İttifaq dağılanda təzə-təzə yaranan reket dəstələr varlı-karlı adamların uşaqlarını oğurlayır, kalan kuş alıb uşağı buraxırdılar. Narkotikanın da əzəli Moskvadan başlayıb. Mən 98-ci ildə Moskvada olanda görürdüm ki, 14-15 yaşındakı uşaqlar narkotikə qurşanıblar. Bakıya qayıdan kimi sxodka çağırıb narkotik al-verinə veto qoydum. Reketlə mübarizəni də mən burada dəstəkləmişəm. Moskvadakı Solnsevo, Koptevo, Orexovo və başqa dəstələr də belənçik yaranıb. Onların başında dayanan adamların əksəriyyəti heç türmə balandası dadmayıblar. Naranın, şkonkanın, obşakın nə demək olduğunu bilmirlər. Amma başlarına topladıqları sportsmenlər killerlik edir, uşaq oğurlayır, silah gücünə biznesmenlərdən dan yığırlar. Zakonniklərdə isə belə hal yoxdur. Rövşəninki, mənimki başa salmaqdır, məsləhət verməkdir, yalvarmaqdır... Məsələn, Rövşən utanırdı ki, yanında on-on beş cangüdən aparsın. Özünü yaxşı oğlan sayan bespredel dəstə başçısı isə heç nədən, heç kəsdən utanmadan yanında bir neçə briqada saxlayır, hərəsində otuz-qırx reketçi, idmançı, boyets. Bir razborka düşən kimi də, istər prav olsun, istər neprav - əl atır silaha, öldürür qarşısındakını. Camaata güc gəlmək, zorla onları özünə tabe etdirmək düzgün prinsip deyil. Camaat fikirləşməməlidir ki, Rövşən, yaxud Amil gəlir , yatın, qorxun ondan. Moskvada "Silvestr", "Babon", "Broyler" gələndə bazar əhli gizlənməyə siçan deşiyi axtarırdı. Amma Hikmət, Bəxtiyar, Mirseymur, Söhbət belə deyildilər. Camaat onların gəldiyini eşidəndə əksinə, çalışırdı ki, onlarla ünsiyyət qursun, şikayətini, dərdini, problemlərini söyləsinlər. Rövşən də Hikmət, Mirseymur məktəbini keçmişdi və onlar kimi klassik oğruların yolunu gedirdi.

Məzluma kömək, qəddqrlara qəddar,
Haqsızlığa sərt oldu, haqqa tərəfdar.
Hər bir işə səbr eyləyib, Allaha ümidvar,
Göstərdi həqiqət nədir, şeytanlara Rövşən.

– 1995-ci ildə Bəxtiyar bütün şəhərlərə, rayonlara, kəndlərə xəbər göndərmişdi – adam oğurluğu "bizim aləm"ə yad cinayətdir! Kim bu cür işlə məşğul olarsa, onun cəzasını məhkəmədən əvvəl biz verəcəyik. Uşaq oğurluğu belədir ki, lotular hətta uşağı tapıb təhvil verəndə də başağrısız ötüşmür. Polis elə zənn edir ki, guya biz onun kim tərəfindən oğurlandığını, harada sxlanıldığını bilirdik. Dəfələrlə Rövşənlə bu barədə söhbətlərimiz olub və həmişə fikirlərimiz üst-üstə düşüb. Ümumiyyətlə, mən onun kimi düzgün, onun qədər kasıb-kusuba, yetim-yesirə, əlil-kimsəsizə yardım edən birisinə rast gəlməmişəm.

– Mən Bəxtiyarın xətirini dünyalarca istəyirəm. Amma onunla bircə dəfə görüşmüşəm. Onun dayısı rəhmətlik Qədəşbala bizin qonşumuz olub. Çox imkanlı, varlı-karlı adam idi. Mənim qucağımda vəfat eyləyib, rəmətə gedib Qədəşbala. Mən qazamatdan buraxılanda Bəxtiyar beş min manat pul göndərmişdi ki. istədiyim kimi xərcləyim. O mənim haqqımda eşitmişdi. O vaxt dostlarımdan biri mənə restoran bağışlamışdı, digərləri başqa şeylər. Mən Bəxtiyar, Hikmət, Rövşənin hörmətlərini saxlamışam, onlar da mənim. Heç vaxty hərəkətlərimin, sözlərimin qarşısına şlaqbaum qoymayıblar. Əliqardaşla çox görüşmüşəm. Heyif ki, onun qədrini

bilmədik. Çox müdrik insan idi. Sirlər xəzinəsi idi Əliqardaş! Amma mənim yeganə pərəstiş etdiyim oğru var - Rövşən Lənkəranski!

Ömrü yaşamaqdan ötrü sadə və düzgün,
Etdi bu çətin yolda həyat sürməyi mümkün.
Heç ləzzətini dadmamış cavan ömrün,
Bir qismini həsr eylədi zindanlara Rövşən.

Moskva meriyasının göstərişinə əsasən bazar ləğv ediləndən sonra Lənkəranski Ded Xasan və Tariyel Onianinin nüfuz dairələrinə məxsus sahələrdə bir neçə kiçik biznes strukturu yaratdı. Usoyan sabiq şagirdini əvvəlcə paytaxtın mərkəzindəki nüfuz dairəsi - Marina Roşadan, daha sonra ümumiyyətlə Moskvadan sıxışdırıb çıxarmağa çalışırdı. Lakin gürcü avtoritetləri Cemo və Mamuka Mikeladze qardaşları klanı Rövşən Lənkəranskinin tərəfini saxladı.

# “Tort”dan hamıya pay çatdı

Ukrayna MCMİ-nin məlumatına görə, Rövşən Canıyev xəfiyyələr tərəfindən üç dəfə bu ölkədə saxlanılıb.

2008-ci ilin soyuq fevralında Rövşən həmvətənlisinə məxsus özəl mehmanxanalardan birində dincələrkən qapı döyülmədən açıldı və otağa beş-altı nəfər soxuldu. Əyinlərində uzun ətəkli palto, tünd rəngli kostyum keçirsələr də, onların qılınc tiyəsi kimi ütülü şalvarları, yerişi və buz kimi soyuq baxışlarından “faraon” olduqları şübhə doğurmurdu.

- Canıyev Rövşən Rafiq oğlu? – irəlidəki daz başlı, sifəti çillərlə örtülü “ramzes” (zabit) soruşdu və “hə” cavabı almamış davam etdi: – Siz həbs olunursunuz! Sakitcə arxamızca gələcəyinizə söz verirsinizsə, qolunuza “braslet” keçirilmədən bizimlə gedək. Tanınmış oğrunun camaat içində qandallarla aparılması həm sizin, həm də bizim nüfuzumuza xələl gətirər.

Milis idarəsində dazbaş polkovnik Lənkəranskiyə onun yaxın günlərdə Azərbaycana ekstradisiya ediləcəyi barədə bildirdi. Polkovnik həm də onun mehmanxananın azərbaycanlı sahibi tərəfindən “satıldığı” haqda bir neçə kəlmə söylədi.

– Bu barədə mən xəbər verməsəydim də, operativniklərdən kimsə sizinkilərə pıçıldayacaqdı, – deyən polkovnik davam etdi: – Əməkdaşlarımız arasında sizə işləyənlərin sayı yetərincədir. Əgər “qaçqın” statusunuz olsaydı, ekstradisiyanı dayandımaq mümkün idi. Savadlı vəkillər bu işin öhdəsindən gələ bilərlər. Yaxşı “lave” (pul) sayəsində bacarıqlı, işgüzar vəkillər tapmaq çətin deyil. Sizi Azərbaycana göndərməkdən biz heç bircə sent də qazanmırıq.

Vəkillər əvvəlcə məhkəməyə Rövşənin psixi xəstə olduğu barədə arayış təqdim etdilər. Lakin hakim Lənkəranskinin 40 gün nəzarət altında saxlanacağı barədə qərar çıxardı. Vaxtın tamamına bir neçə gün qalmış vəkillər Canıyevin “qaçqın” statusu alması üçün lazım olan sənədləri hazırlayaraq məhkəməyə təqdim etdilər. Ukrayna mətbuatının yaydığı xəbərə görə, “status” Rövşənə 2,5 milyon dollar çistoqana ( nəqd pula) başa gəlmişdi.

Məhkəmə on beş dəqiqə davam etdi.

– Mən elə bir insanı müdafiə edirəm ki, onun vətənə qaytarılması faciə ilə nəticələnə bilər, - deyə vəkil Eduard Bağırov çıxış etdi. – Mən hüququnu qoruduğum adamın kriminal keçmişini araşdırmaqdan uzağam. Amma yəqin bilirəm ki, müttəhimlər kürsüsündə əyləşən bu insanı orada öldürə bilərlər. Bu isə bizim qanunvericiliyimizə ziddir!

Məhkəmədə iştirak edən Rövşənin dayısı Əli Əhmədov da yerindən dilləndi:

– Möhtərəm hakim, bir baxın, o necə cavan, yaraşıqlı, həyat eşqi ilə çırpınan oğlandır. Biz onu itirmək istəmirik. Siz də buna razı olmayın. Onu oraya vermək olmaz. Biz Rusiya prezidenti Dmitri Medvedevə, Ukraynadakı səfir Viktor Çernomırdinə, beynəlxalq məhkəmələrə müraciətlər etmişik...

Rövşən məhkəmə zalından azadlığa buraxılarkən yalnız Əli Əhmədovun deyil, vəkillərin, prokurorun, hakimin və hətta katibənin də çöhrəsində “ Azadlığın mübarək!” təbəssümü parlayırdı. İki milyon yarımlıq “tort”dan hamıya yetərincə pay çatmışdı.

Canıyevə Ukraynada sığınacaq verilməsi barədə qərar çıxarıldı. Belə qərarların qanuni oğrular üçün “elə-belə” çıxarılmadığını hamı yaxşı bilirdi.

“Qaçqın sığıncağı”nda yaşamasına baxmayaraq, Canıyev az müddətdə Ukraynada öz biznesini qurmağı bacardı. Ancaq xoxol mentlər də yatmır, Rövşənin hər addımını nəzarətdə saxlayırdılar. Lənkəranskinin “tüklənməsi” onların da xeyrinə işləyirdi. İstənilən an azərbaycanlı oğrunun saxlanması və doğma diyara ekstradisiya məsələsi ilə “bazar açılması” güc strukturlarına lazımi miqdarda “kuş” gətirirdi.

# Ekstradisiya

3 dekabr 2009-cu ildə Ukrayna DİN-nin MCMİ əməkdaşları Kiyevdə yenidən Rövşən Canıyevi saxlayırlar və Qolosevki rayon məhkəməsi onu 40 sutka müddətinə dəmir barmaqlıqlar arxasına göndərir. On gün sonra isə Lənkəranskini Azərbaycana ekstradisiya edirlər.

Prokurorluq Canıyevə Az. Respublikası CM-nin 228.1 maddəsi (qanunsuz silah saxlama) ilə cinayət işi qaldırıldığını bəyan edir. 2010-cu ilin 29 yanvarında başlanan məhkəmə prosesi mart ayında yekunlaşır və prokurorun ona 12 il həbs cəzası verilməsi tələbinə baxmayaraq, hakim 2 il 9 ay islah olunmasının yetərli olduğu haqda qərar çıxarır. Və bu müddətin ilkin istintaq zamanı Canıyev tərəfindən oturulduğu bəlli olduğundan, Rövşəni məhkəmə zalından azadlığa buraxırlar. İki gün sonra Lənkəranski Azərbaycanı tərk edir.

Onun nüfuzu Rusiyada, Ukraynada böyük olduğu kimi, Azərbaycanda da böyükdür. Sadə xalq nümayəndələri kimi vəzifə sahibləri də Canıyevin nüfuzundan və şəxsi keyfiyyətlərindən danışmaqdan çəkinmir.

Milli Məclisin deputatı Fəzail Ağamalı mətbuata açıqlamasında Rövşən Lənkəranski haqqında bu fikirləri söyləyib:

"Bəzi adamlar elə düşünürlər ki, Rövşən Lənkəranski qəddardır, başkəsəndir. Amma o elə insan deyil. Rövşən haqsızlığa yol verməyən bir insandır. Onun haqqında söylədiyim fikirlərin hamısını çox ciddi demişəm. Mən özüm millət vəkiliyəm. Fikirlərimdə hər hansı bir epitet, şişirtmə yoxdur. İstəyirəm ki, hər kəs Rövşən Lənkəranskinin kifayət qədər hörmətə, rəğbətə layiq olduğunu bir daha görsün. Hər bir Azərbaycan övladı ona hörmət etməlidir. Çünki Rövşən Azərbaycanı çox istəyir".

Moskvaya gələn Canıyev az müddət ərzində azəri avtoritetləri arasında nüfuzunu artırır. Ancaq onun rəqibləri də az deyildi. Oğru aləmində böyük nüfuz sahibləri olan Baxış Əliyev ("Vaxa"), Yusif Əliyev ("Yuska") Rusiya mafiyasının liderlərindən sayılan Aslan Usoyanın klanına daxil idilər.

NEVS.ru və MBN informasiya agentliklərinin yaydıqları məlumatlara görə, Rövşən hələ 2009-cu ildən başlayaraq Moskvadakı tərəvəz məhsulları biznesini öz əlində cəmləşdirmək niyyətində idi. Bu dövrdə Ded Xasanın başı Kutaisi qruplaşmasının lideri Tariel Oniani ilə razborkalara qarışdığından, "tərəvəz" qalmaqalına vaxt ayıra bilmirdi. İspaniya hökumət dairələrinin "Osya" ləqəbli Sergey Butorini Rusiyaya təhvil verməsindən sonra buradakı Mütəşəkkil Cinayətkar Qruplaşmalar (MCQ) arasında münaqişələr, toqquşmalar böyüyərək müharibə müstəvisinə yüksəldi. "Osya"nın nəzarətində olan "Orexovo-Butovo" cəmiyyətinin milyonlarla dollar dəyərindəki bankları, bazarları, ticarət mərkəzlərinə kənardan əllər uzanmağa başlanıldı. 1990-cı illərin əvvəllərində olduğu kimi indi də Moskvadakı qruplaşmalar bu "tort"dan bir tikə qoparmağa can atdı. Cinayətkar qruplaşmalar üçün müvəqqəti də olsa sahibsiz qalan biznes strukturları uğrunda mübarizə, düşmənin zərərsizləşdirilməsinə yaxşıca fürsət yarandı. Oğru aləmində böyük nüfuz sahibi Andrey Qolubevin qətlini Moskvadakı azərbaycanlı avtoritetlərin adlarına çıxmaqla Rövşənə yaxın adamların aradan götürülməsi prosesi başlandı. Qolubevin "Yeddisi"nin səhəri günü "Skif"in döyüşçüləri "Vernisaj" bazarında avtomatdan açdıqları atəşlərlə cinayət aləmində öz yerləri olan Verdiyev və Hüseynovu qətlə yetirdilər. "İzmaylovo" bazarında da azərbaycanlı qanı axıdıldı. Yarmarkanı nəzarətdə saxlayan İqbal Nəcəfov gülləborana tuş gəldi. Qatillər "Kalaşnikov" avtomatı və iki tapançanı hadisə yerinə tullayaraq aradan çıxmağı bacardılar. Xəstəxanaya çatdırılan Nəcəfovun bədənində həkimlər on beş güllə yarası saymışdılar. Versiyalardan biri və ən başlıcası, bu qətllərdə erməni barmağının olması idi. Erməni avtoritetlər nəyin bahasına olursa-olsun azərbaycanlılara məxsus "Aist", "Ağdam", "Belıy Parus", "Aqdaş" və sair otuza yaxın restoran , kafe, barları, "Tuşino", "Lujniki", "Lefortovo", "Bauman", "Butırskaya", "Lionozovskaya" bazarlarındakı satış obyektlərini, "Kursk", "Belorus", "Paveletsk" vağzallarda taksi daşınmalarını ələ keçirməyə çalışırdılar.

Qeyd etmək lazımdır ki, bu işdə erməni oğrular daha böyük mütəşəkkillik göstərir, və çox vaxt da istəklərinə nail olurdular.

Azərbaycanlı oğru və avtoritetlərə qarşı bir-birinə düşmən erməni “xaç ataları” da birləşərək mübarizə aparırdılar. Qriqori Farzadyan, Hamlet Ziroyan, Vaçikos Tetevosyan, Mişa Baqdasaryan, Aşot Givoyan, Aram Haybyan, “Moryak” Albert, “Baron” Baroyan və başqaları bir araya gələrək hərəkət planı cızırlar. Onların planında Moskvada böyük nüfuz sahibləri sayılan “Yardımlı Rüfət”, Elman Cəfərov, “Tovuzlu Kamal” ayamalı Kamal Tapdıqoğlu, Akif Abbasov, Aslançik” ləqəbli Qalib Aslanov, “Elik” ayamalı Eldar Talıbov və başqalarının sıxışdırılaraq Moskvadan uzaqlaşdırılması, bu mümkün olmadıqda adlarının qara siyahıya salınması dururdu.

“RİA Novosti ” onu da yazırdı ki, Moskvadakı “Koptevo”, “Solnsevo”, “Tuşino” qruplaşmalarının liderləri və hətta Usoyan da azrilərlə erməni qanqsterlə arasında vasitəçilik etməyə, barışıq yaratmağa səy göstərsələr də, strelkaların müsbət nəticəsi olmayıb.

“RİA Novosti” və “MBN” agentliklərinin məlumatına görə, 2010-cu ilin sentyabrının əvvəllərində Rövşənin yaxın tərəfdaşlarından biri - Vaqif Tukanov qətlə yetirilir. Olaydan iki həftə sonra, yəni ayın 16-da Moskvada Aslan Usoyana sui-qəsd təşkil olunur. Hadisədən bir gün əvvəl Ukrayna güc orqanları Kiyevdə Rövşəni saxlayaraq KPZ-yə oturtmuşdular. “Praym Kraym”-ın yayımladığı xəbərə görə, Canıyev Moskva - Kiyev qatarından düşərkən perronda əməliyyatçılar tərəfindən “gül-çiçəklə” qarşılanmışdı. Oğrunun gəlişi barədə kimdənsə müfəssəl xəbər alan xəfiyyələr birbaşa şmona girişmiş və Canıyevdən saxta sənədlərini harada gizlətdiyini soruşmuşdular. UMCM-in rəisi Aleksandr Plujnikin verdiyi xəbərə görə, Lənkəranskinin üstündən üç saxta pasport tapılmışdı. İki xarici sənəddə Canıyevin foto şəkli yapışdırılsa da, ukraynalı soyadı yazılmışdı. Üçüncü pasport isə familiyası başqa olan azərbaycanlı vətəndaşa verilmişdi, amma burada da şəkil Rövşəninki idi.

Usoyan hələ xəstəxana çarpayısında yatarkən başına toplaşmış yaxınlarına, demişdi ki, onun sifarişçisi Lənkəranskidir və Kiyevdə həbs olunmaqla özünə guya sui - qəsddə barmağı olmadığına dair alibi yaratmağa çalışıb.

Haşiyə

DED XASAN kim idi?

# Patriarxın qətli

... "2013-cü il yanvarın 16-da, təxminən saat 14.30- da Rusiyada və ümumiyyətlə dünyada Ded Xasan kimi tanınan Aslan Usoyana sui-qəsd olunub. Rusiya mafiyasının lideri həmin vaxt qəbulu tamamlayaraq cangüdənlərinin əhatəsində Lyubersidəki qəsr-kottejinə yollanmağa hazırlaşırdı.

Killer –( güman edilir ki, bu, milliyyətcə çeçen olub) qarşı tərəfdəki binanın ( SSRİ-nin himninin sözlərini yazmış şair Sergey Mixalkovun mənzilinin üstündən) çardağında gizlənərək "xaç atası"nın restorandan çıxmasını gözləyirmiş. Güllə Aslanın boyun nahiyəsindən dəyib və ağzından çıxıb. Cangüdənlərdən biri çardağa tərəf atəşlər açsa da, artıq gec idi. Qatil aradan çıxmışdı.

Qətl "Köhnə Fayton" restoranının qarşısında baş verib. Qeyd edək ki, bura Ded Xasanın sevimli məkanlarından biri olub, hətta "qanuni oğru"nun qərargahının da məhz həmin restoranda yerləşdiyi bildirilirdi.

Bu, sayca Ded Xasana qarşı dördüncü sui-qəsddir. Bundan əvvəlki hadisədə xəstəxanaya çatdırılan Ded Xasanın həyatını xilas etmək mümkün olmuşdu. Həmin vaxt Moskvanın ən yaxşı cərrahları işə cəlb olundu və bu özünün müsbət nəticəsini verdi. Cəmi bircə həftə sonra Ded Xasan kritik vəziyyətdən çıxaraq həyata qayıtdı.

Versiyalar:
Qətldə slavyan əli

İş burasındadır ki, 2004-cü ildə Usoyan tərəfdaşı olan Avtandil Kobaşevidzeyə tapşırmışdı ki, "Uralmaş" və "Sentr" qruplaşmasının əməlləri ilə maraqlansın. Həmin qrupların liderləri Aleksandr Xabarov və Aleksandr Varaksin "xaç atası"nın konfrantasiyada olduğu qanuni oğrular – Karo və Trofa ilə isti münasibətdə işləyir, Dedi saya salmırdılar. 2005-ci ildə Xabarov mentlərin tikdiyi "torba" ilə tutulur və az müddət sonra SİZO-nun kamerasında özünü tavandan asmış halda tapılır. Məhbusların dediyinə görə, bir gün əvvəl Saşa kamerada deyib-gülür, yeyib içirmiş və onda intihar əhval-ruhiyyəsi hiss olunmurdu. Xabarovun yaxın ətrafı onun ölümündə Aslan Usoyanı təqsirkar sayırdı. Lakin nədənsə, prokurorluq Uralmaş qruplaşmasının liderinin ölüm işini araşdırmadan dayandırdı.

# Arutyunovun araşdırması:

"İzvestiya" qəzetinin əməkdaşının (Aleksandr Arutyunov) apardığı araşdırmalarda qətldə slavyan barmağının izi olduğu barədə yazılırdı. Qeyd olunurdu ki, slavyan zakonniklər arasında böyük çəkiyə malik Aleksey Suvorov (Petrik) və onun yaxınları üç il əvvəl güllələnərək qətlə yetirilən İvankovun ölümünü məhz Usoyanın təşkil etdiyini dəfələrlə bildirmişdilər. Usoyan tərəfdarlaı isə bu qətlin Rövşən Lənkəranskinin qruplaşması tərəfindən törədildiyi haqda şaiyələr yaymağa başlamışdılar.

Operativniklər və jurnalistlər "xaç atasının" Troyekurovsk qəbristanlığında baş tutan dəfnində və sonradan təşkil olunan "pominka"da slavyan avtoritetlərin iştirak etməməsinin səbəbini də məhz bu amildə görürlər. Ded Xasanla vidalaşan zakonniklərin böyük əksəriyyəti qafqazlılar idi. Slavyanlardan yalnız Vasya Voskres və Viktor Sezar mərhumun ruhuha dualar səsləndiriblər.

Verilən xəbərlərə görə, slavyan avtoritetlərin qəbristanlığa getmələrinə "zapret" qoyanlar – Petrik, Yuriy Esin ("Samosval"), Aleksey Zabavin ("Zabava") və Sergey Aksyonov ("Aksen") olub.

Qeyd eləmək lazımdır ki, Petrik hələ 2009-cu ildə Yaponçik qəbrə qoyulanda məzar başında: " Söz verirəm ki, qətlin sifarişçisini tapacam və onun qarnını güllə ilə dolduracam" – demişdi. Bir il sonra Tver küçəsində killer Usoyanın başını deyil, məhz qarnını nişan almışdı. Yara ölümcül olmamışdı.

Bir il öncə Yunanıstanda Ded Xasanın tərəfdarlarınn iştirakı ilə keçirilən sxodkada çıxış edənlər Petriki oğru əqidəsinə riayət etməyən biri kimi "tərifləmişdilər". Onlar Cuvorovun Usoyan klanına qarşı duranlarla yaxın əlaqələrini tənqid atəşinə tuturdular.

Buna baxmayaraq, məsələ Petrikin tacının əlindən alınması həddinə çatmadı, çünki "Hiyləgər tülkü" İvankovdan sonra slavyan oğrular arasında nüfuzuna görə "nömrə bir" hesab edilirdi.

Versiyaların birinə görə, ehtiyatı heç vaxt əldən verməyən Petrik uzun müddət Yaponçikin qətlində günahkar bildiyi Usoyandan qisas almaq üçün lazımi anın yetişəcəyini gözləyirdi.

Belə fikirlərə səbəblər də az deyildi. İvankovla Ded Xasanın yaxınlığına baxmayaraq, söhbətlər gəzirdi ki, Yaponçik kriminal aləmin patriarxı Deduşka üçün əncəlli fiqur sayılırdı. İvankov daim ondan yuxarı müstəvidə dayandığını hiss etdirmək naminə obşakdan düzgün istifadə olunmadığını xatırladır, başqalarının cəsarət etmədiyi iradlarını bildirirdi.

Petrikin fikrincə, Yaponçiki güc strukturlarının xüsusi təyinatlı əməkdaşı olan killer aradan götürmüşdü. Ded Xasanın DİN-də və FSB-də çalışan yüksək çinli zabitlərlə yaxın əlaqəsi isə kriminal aləm adamlarına sirr deyildi. Usoyan sadəcə, İvankovla Tariyel Oniani klanı arasında əlaqələrin kəskinləşəcəyi anı gözləyirdi. Həqiqətən də 2009-cu ildə Yaponçikə olunan sui-qəsddə bütün şübhələr Taronun və on yaxın "vorların" üzərinə yönəlirdi.

İstina deyil ki, 50 yaşlı Petrik də analoji kombinasiyadan istifadə edərək Ded Xasanı aradan götürüb. Bu halda bütün əsas versiyalar Oniani qrupunun liderləri sayılan Merab Canqveladze ilə Rövşən Canıyevin üzərinə yönəlmiş olurdu.

Qətl haqqında mülahizələrini söyləyən xəfiyyələrdən biri MBN informasiya agentliyinə deyib:

- Petrik – çox ağıllı və ehtiyatlı adamdır. O, qrossmeyster kimi bir neçə gediş əvvəli fikirləşir. Təsadüfi deyil ki, onun daha bir kliçkası var – "Hiyləgər Lençik".

Maraqlıdır ki, Suvorov (əsl soyadı Petrovdur) hələ 1990-cı illərdə "qafqazlı çernomazı"lara qarşı "müharibə"də Orexovski Silvestrlə birləşərək çeçenlr və digər "qaralar"ı Moskvadan qovmağa can atırdı.

Petriklə bağlı versiyada qətlə doğru uzanan xətlər çox olsa da, istintaqda barmaq ilişdirəsi dəqiq faktlar yoxdur. Kim öldürüb ...Usoyanı? Cüc strukturları, yoxsa Merab Canqveladze, bəlkə Rövşən Canıyev? Bəlkə Aleksey Suvorov, bəlkə də başqaları? Biz yəqin ki, heç vaxt patriarxın kim tərəfindən öldürüldüyünü bilməyəcəyik, – yazırdı "İzvestiya".

# GÜC STRUKTURLARI

“Novaya qazeta”nın müxbiri Sergey Sokolovun versiyasına görə, qətlin hazırlanması güc strukturlarının bilavasitə yaxından iştirakı ilə həyata keçirilib: “ Mən güman etmirəm ki, hər hansı polis zabiti kimi isə qətlə yetirib, amma onların Ded Xasan haqqında topladıqları informasıyanı, gəlişi, gedişi, hərəkətləri bardə xırdalıqlarına varmadan maraqlı dairələrə, hətta killerlərə ötürmək imkanları olub. Bizlərdə belə hallar çox olub. Belələri “narujka”da çalışırlar. Belə bölmələrin əməkdaşlarını sifətdən kimsə tanımır. Onları “razvedçiklər” adlandırırlar. Onların ad və familiyalarını heç idarənin rəisləri də bilmir, maşınlarını QAİ işçiləri saxlamaq, yoxlamaq iqtidarında deyillər. “Neproveryayka” adlandırılan “narujka”nın “razvedçik”ləri yalnız birbaşa tabe olduqları rəislərinə hesabat verirlər. Əgər həmin faktlar cinayət xarakterlidirsə, iş “soverşenno sekretno” qrifi ilə möhürlənir. Belə işlər heç vaxt adi müstəntiqin əlinə düşə bilməz. Onların qırmızı xətlə işarələnmiş vəsiqələri Lyubyanka meydanındakı FSB-nin xüsusi kartotekasında saxlanılır və adətən hər maşın ekipajı “vodilo” və iki “taptun”dan ibarət olur. “Obyekt”in kimliyindən asılı olaraq ona bir, yaxud bir neçə ekipaj təhkim olunur. Rəhbərlik çalışır ki, “razvedçiklər” “obyekt” haqqında mümkün qədər az məlumatlı olsunlar. “Taptunlar” günəmuzd işləyir, hər gün üçün 150 dollar qazanırlar. “Obyektlər” haqında sual vermək qadağan olunub, “az bilirsənsə-çox işləyəcəksən” prinsipi hamıya aiddir.

Ded Xasanın sutkanın bütün anlarında “narujka”nın dülbülü fokusunda olması kimsədə şübhə doğurmurdu.

“Novaya qazeta”nın digər reportyoru Sergey Kanev də Aslan Usoyanın güc strukturları tərəfindən qətlə yetirilməsini sübut etməyə çalışır. Onun dediyinə görə, Ded Xasan Moskvaətrafı şəhər və qəsəbələrdə “haqq” yığarkən prokurorluq orqanları, istintaq komissiyaları və FSB zabitləri ilə yaxından əməkdaşlıq edir, onlara küllü miqdarda rüşvət verirdi. Kanevin versiyasına görə, 2000-ci ildən başlayaraq Moskva vilayətinin prokurorları tərəfindən çoxpilləli rüşvət sistemi yaradılmışdı. Prokurorların “adamı” kimi vilayətdə böyük nüfuz sahibi olan bznesmen-kommersant Valeri Kazakov tanınırdı. Kazakov haqq verənlərdən pulları yığır, Moskvada daşınmaz əmlak, Qara dəniz sahillərində və xaricdə torpaq sahələri, mənzillər alırdı. Prokurorlardan savayı qubernator Boris Qromovun məsləhətçiləri, Moskva vilayəti deputatları, QUVD zabitləri və rayonunu tanınmış çinovnikləri Kazakovun xidmətlərindən faydalanırdılar.

2008-ci ildə Puşkin şəhər prokurorluğunun qapısı kəndarında Kazakova bir neçə güllə vurulduqdan sonra boğazını da kəsdilər. Killerlərin Dmitri Lesnyakovun ( “Les”) banda üzvləri olduğu hamıya bəlli idi. Les 1999-cu ildən axtarışda olsa da, Andrey Seniçev və Ruslan Valentinovun adlarına aldığı saxta pasportlarla elə Puşkin şəhərindəcə yaşayır və hətta bəzi şoulara sponsorluq da edirdi.

Puşkin qruplaşmasının digər profi-killeri “Verşina” ayamalı Andrey Verşinin isə Konstantin Qriqoryevin adına satın aldığı pasportla yaşayır, Ded Xasanın obşakından verilən “məvacib”lə dolanırdı. Tam araşdırılmamış siyahıya görə, Lesin qruplaşması iyirmiyə yaxın qətl törətmiş, bir düjindən çox kommersantı əlilə çevirmişdilər. Tutulmuş banda üzvləri sifarişçilərin adlarını çəkmədilər, dörd killer isə aradan çıxaraq “dibə” oturdu. Güc strukturları əməkdaşları və prokurorluq işçiləri banda üzvlərinin əməllərindən agah olsalar da, tam başqa məsələlərin həlli ilə məşğul idilər – pullarını qazanırdılar.

Onların arasında sabiq Tuşino prokuroru Boris Nersesyan (hazırda axtarışdadır) və bu yaxınlarda Polşadan deportasıya olunaraq “Lefortovo” kamerasına oturdulan Moskva vilayər prokurorunun müavini Aleksandr İqnateko öz iştəkləri ilə nəzəri daha çox cəlb edirlər.

Kanevin araşdırmalarından görünür ki, Moskva vilayətindəki şəhərlərdə çalışan prokururların əksəriyəti korrupsiya girdabında çabalayan rüşvətxorlar idilər və daha çox qazanmaq xatirinə hətta qanunu oğrularla əlaqə yaradırdılar. İşləri çətinə düşəndə isə daha çox

informasıyası olanları aradan götürür (Kazakov kimiləri), qaynayan qaznın qapağını qaldırmaqla nəzər diqqəti başqa səmtə yönəldirdilər.

Bu baxımdan Ded Xasan istər Moskvada, istərsə də paytaxtın ətrafındakı rayonlarda güc strukturları barədə olduqca böyük informasıyaya malik idi...

# MÜHARİBƏ DAVAM EDİR

Sonuncudan əvvəlki sui-qəsddən sonra xəstəxanada özünə gələn Ded Xasan yaxın ətrafına pıçıldamışdı ki, bu cəhdi Kutaisi qruplaşmasının kriminal generalı Tariyel Oniani ( Taro) sifariş verib. Sonralar öz yetirməsi Rövşən Canıyevdən şübhələnməyə başladı:

– Bir neçə il öncə, mənim şagirdlərimdən olan Rövşən “Lənkəranski” kriminal aləmdə yalnız “leytenant” çininə uyğun gəlirdi. Pövşən Olimpə doğru yüksələn pillələri iki –iki, üç-üç qalxır və yaxın gələcəkdə generallarla eyni tortu bölüşdürməyə girişəcək. Gənc və həddən ziyadə qorxulu rəqibdir ”, - demişdi.

Əslində, “sifariş” üçün Taronun daha böyük motivləri vardı: Aslanla müharibədə onun otuzdan artıq tərəfdaşı öldürülmüş, nüfuz dairəsində olan onlarla kommersiya şirkətləri güc strukturlarının əlinə keçmişdi. Bundan savayı Usoyanın tələbi ilə həmin güc strukturları Onianinin “torbasını tikməklə”( adam oğurluğunda günahlandıraraq ) onu 10 il müddətinə içəri basdırmışdılar. Kriminal aləmdə söhbət gəzirdi ki, Tariyelin naraya oturdulması Aslana milyon yarım “yaşıla” başa gəlib.

Onianinin adamları dəfələrlə bəyan etmişdilər ki, Xasan FSB ilə çoxdan “yaxınlıq” edir və Piroqov su anbarı həndəvərində düzənlənən sxodkanın mentlər tərəfindən dağıdılmasında “Baba”nın rolu danılmazdır.

28 iyul 2009-cu ildə Moskvada İvankova sui-qəsd olundu. 9 oktyabr 2009-da oğrular öğrusu Yaponçik xəstəxanada peritonit yarasından vəfat etdi. 11 oktyabrda onu Vaqankov qəbristanlığında çarlara məxsus əzəmət və təntənə ilə dəfn etdilər. Dəfn mərasiminin önündə Aslan Usoyan – Ded Xasan addımlayırdı.

Taro İvankovun qətlində əli olduğunu qətiyyətlə inkar etsə də, Dedin tərəfdarları tərəfindən sifarişçi kimi Onianinin dəstə üzvləri - qanuni öğrular Merab Canqveladze ( Merab Cuxumsliy) və Vladimir Canaşıya “Lado” şübhəli bilinirdilər.

Bir neçə sui-qəsdə cəhddən salamat çıxmış “Lado” nəhayətdə 18 mart 2010 –cu il tarixində Fransanın Marsel şəhərində öldürülür. Gizlində yaşayan oğrunun qətlinin sifarişçisi kumdir? Əsas versiyalardan biri kimi sifarişçinin Kaxaber Şuşanaşvili və Laşa qardaşları olduğu gümün edilirdi.

İki ay sonra, 2010-cu il mayın 10-da Yunanıstanda Oniani klanının daha bir üzvü, Malxaz Kitiya (Maxonya) qətlə yetirilir. Afina şəhər polis idarəsinin yaydığı məlumata əsasən, təşkilatçı Lyova Stavropolski ayamalı Lavrenti Çolakidisin adı hallanır. Olaydan 15 gün sonra Saloniki şəhərində bir meyit aşkarlanır. Cəsədin qəflətən vəfat etmiş Lyova Qrekə məxsus olduğu aydınlaşır.

16 sentyabr 2010-cu il tarixində dünyaya şok informasiya yayıldı – Aslan Usoyana sui-qəsd olunub və oğrular oğrusu ağır yaralı vəziyyətdə klinikaya çatdırılıb. Reanimasıya şöbəsindən xüsusi palataya keçirilən Aslan bir neçə tanınmış oğrunun yanında onu əvəzləyəcək adamın adını açıqlayıb – Laşa Şuşanaşvili!

Tariyel Oniani elə qəsd günü elan edib ki, olayda onun əli tər-təmizdir.

Elə xəstəxana palatasında düzənlənən kiçik iclasda Ded Xasan sifarişçinin adını söyləyib. Guya bu patsan bir vaxtlar onun ən istedadlı şagirdi olub, azərbaycanlıdır, gəncdir, çox istedadlıdır...

- Bu, Rövşən Lənkəranski Canıyevdir - deyib.

Rövşən Canıyev də “ilk müəllimi”ndən lazımi qədər inciklik toplamışdı. Lənkəranski klandan aralanan kimi Ded onun oğru adını “aldı ” və biznesinə xeyli ziyan vurdu.

Lakin kriminal aləmdə Rövşənə verilən “udar po uşam” (adının alınması) birmənalı qarşılanmadı... Lənkəranski cavan olmasına baxmayaraq, artıq kriminal aləmin liderlərindən birinə çevrilmişdi. Həm də həmin sxodka birtərəfli, yalnız Dedin yaxın ətrafının iştirakı ilə keçirildiyindən oğru qanunlarına uyğun gəlmirdi.

# “Udar po uşam ”

Udar po uşam - oğru adının alınması deməkdir. Tacı əlindən alınmış oğrunun vəziyyəti heç də həsəd aparılası olmur. O, obşakdakı payını, xərac yığdığı yerləri, nüfuz dairəsini itirir, zona düşəndə isə küncdə və yaxud pəncərə qabağındakı guşəsindən ortaya tərəf itələnir. Sabiq oğru artıq bu vəziyyətə dözüb davam gətirməlidir. Çünki adlarını itirmiş oğrular əllinci illərin ortalarında olduğu kimi öz qruplaşmalarını yarada bilmirlər. Adını itirmiş oğru başqa qruplara da qoşula bilmir. Çünki zakonniklərlə banditlər arasında həmişə konfliktlər olub. Bəs oğru öz adını hansı günahlarına görə itirə bilər?

Bu günahların başlıcası oğru əqidəsi qanunlarını pozmaqdır, amma adi yalana görə də “tac” oğrunun əlindən alına bilinər.

Məsələn, Monqol ləqəbli moskvalı qanuni oğru öz şöhrətinin zirvələrinə yetmişinci illərin əvvəllərində çatmışdı. Onun əlinin altında fırlanan idmançılar sexovikləri qarmağa keçirirdilər. Sonra vəziyyət qarışdı, Monqola on il iş verdilər. Oturub çıxandan sonra o, yenidən reketə başladı və Moskvanın bütün avtoritetlərini özü ilə hesablaşmağa məcbur etdi. Elə Slava İvankov (Yaponçik) da öz oğru bioqrafiyasının ilk sətirlərini Monqolun rəhbərliyi altında yazmışdı. Amma gözlənilmədən sxodkaların birində Monqolun adını əlindən aldılar. Səbəb bu idi ki, Monqol lagerdəki obşakdan şəxsi “lopatniki” (pul qabı, kassası) kimi istifadə edirdi. Obşak qeyri-müəyyən səbəblərdən boşalanda hamı altmış yaşlı Monqoldan şübhələnmiş və çağırılan sxodkada Karkov faktlar qarşısında aciz qalmışdı.

Andreyev soyadlı, “Kirza” ləqəbi daşıyan başqa bir qanuni oğru isə məhkəmə araşdırmasında şahid qismində çıxış etdiyinə görə adını itirmişdi. Oğru anlayışlarına əsasən qanuni oğru məhkəmədə yalnız müttəhim qismində əyləşə, yalnız özü haqqında danışa bilər.

Blatnoy sanksiyaların arasında ən ağırı ölümdür. Bu cəzaya ancaq satqınlar layiq görülür. Satqın deyəndə oğru əqidəsi öz podelniklərini təhvil verən, milislə əməkdaşlıq edən, obşakdan oğurlayan, başqa bir zakonniki sxodkanın qərarı olmadan öldürən, oğru klanından çıxan şəxslər nəzərdə tutulur.

Yeri gəlmişkən, oğru klanından çıxanlar barədə də bir neçə kəlmə söhbət açmaq lazımdır. Oğru qanuna əsasən belə bir addım yalnız müstəsna hallarda atıla bilər. Oğrunun aralanması ağır xəstəliyə görə olsa, üzrlü sayılır. Yüngül xəstəliklər, qocalıq buna əsas vermir, çünki həbsxana-lager rejimində yaşamış oğruların böyük əksəriyyəti müxtəlif xroniki azar - bezara məruz qalır. Əgər oğrunu cəza müəssisəsinin tibbi komissiyası “brak” çıxarırsa və o, səhhətinə görə əlil vəziyyətinə düşüb sxodkalarda iştirak edə bilmirsə, zakonnik bratvadan xahiş edə bilər ki, onu təqaüdə yola salsınlar. Bratva isə öz növbəsində onun səhhətini yoxlayıb həqiqətən xəstə olduğu qənaətinə gəldiyi təqdirdə hörmətlə yola salır. Amma bütün vəziyyətlərdə xəstə zakonnikin taleyini özü deyil, yalnız bratva, sxodka müəyyənləşdirir. Belə olmasa, o, satqın sayılacaq.

Bəzən satqını növbəti sxodkaya dəvət edəndə o, heç bilmir ki, gündəlikdəki məsələ birbaşa onun taleyi ilə bağlıdır. Həmin sxodkada satqını ifşa etmiş oğru öz qardaşlarına bu barədə məlumat verir. Sxodkaya gəlmiş oğrular təbii ki, deyilənlərin sübuta yetirilməsini tələb edirlər. Yalnız bundan sonra sözü şübhəli bilinən şəxsə verirlər. Əgər o, deyilənlərin yalan olduğunu sübuta yetirə bilməsə, vəziyyəti ağır olacaq. Elə sxodkalar olub ki, orda şübhəli bilinən oğru əvvəlcə onu ittiham edən şəxsə şillə vurmuş və yalnız bundan sonra özünün düzgünlüyünü sübuta yetirmişdi. Vəziyyəti belə görən bratva məsələyə münasibətini özünün razılıq nidaları ilə bildirmişdi. Məhz buna görə də sxodkaya hazırlaşan ittihamçı oğru qabaqcadan bütün sübutları toplayır ki, nəticədə özü hörmətdən düşməsin.

Əgər satqın tam ifşa edilirsə, bratva ölüm cəzasının hansı üsulla həyata keçiriləcəyini seçir. Hərdən bu cəzanı intihar kimi qələmə verməyə də cəhdlər edilir. Sxodka öz qurbanına oğru andının ikinci hissəsini, yəni satqınlığa görə ölümü sakit qarşılamağı təklif edir. Təbii ki, cəzaya layiq

görülmüş oğru intihar edəndə səs-küy də az olur. Çox vaxt belə sxodkalardan sonra oğrunun öz əliylə yazılmış, ölümündə heç kəsin günahkar olmadığını bildirən malyavalar da tapılır. Bundan sonra məsələni o, özü həll etməli olur. Satqına içərisində bircə dənə güllə olan tapança təqdim edirlər. Belə bir anda oğrunun artıq seçim imkanı yoxdur. O, çox vaxt məsələnin məhz bu cür bitməsinə sevinir. Çünki hərdən verilən işgəncələrlə zəngin cəza onun üçün güllədən də ağır olur. Məhz elə bu səbəbdən həyatına nöqtənin bu üsulla qoyulması da bəxti işləmək sayılır.

Əgər axırının yetdiyini hiss eləyən oğru sxodkaya gəlməsə, onun üçün cəllad ("likvidator ") təyin edilir. İnsanları muzdla qətlə yetirən bu mütəxəssislər qanuni oğrunun ölümünü "bədbəxt hadisə " kimi tərtib edə bilirlər. "Likvidator"lar adətən öz fantaziyalarını işə salaraq satqını o dünyaya elə göndərirlər ki, milisin məlumatlarında bu olay yol qəza hadisəsi və yaxud odla ehtiyatsız davranmaq kimi qeydiyyata düşür. Nahaq yerə deyil ki, qətlə yetirilmiş kriminal liderlərin böyük əksəriyyəti ya "yatağında siqaret çəkirmiş", ya "üzə bilmirmiş", ya "yolda hərəkətin təhlükəsizliyini pozurmuş", ya da "özünü müalicə ilə " məşğul imiş. Bəzən "likvidator" - killerlər öz qurbanlarının yanına qəşəng qızlar ötürürlər. Sonuncu gecəsini belə gözəlçə ilə eyş-işrətdə keçirən satqın ertəsi gün yuxudan oyanmayacağı barədə heç düşünmür də. Sxodka bəzən elə qətl üsulları kəşf eləyir ki, heyrətə gəlirsən. Hər şey günahın ağırlığından asılıdır.

# DED XASANLA MÜHARİBƏLƏR

Yaponçik Amerikadan qayıdandan sonra artıq Rusiya mafiyasında hegemon rol oynamırdı. Amma artıq “imperator”luğu ələ keçirmiş Usoyanın klanını bir qədər də gücləndirdi. İvankovun 9 oktyabr 2009-cu ildə qətlindən sonra isə Usoyan təkbaşına MCD-rə nəzarət etməyə başladı. Dedin tortun hamısını öz qabağına çəkməsi mafiya stolu ətrafında oturanların bəzilərinə xoş gəlmədi. 2010-cu ildə düzənlənən sxodkadan sonra özünü “xaç atası” elan etmiş Aslana yenə sui-qəsd təşkil olundu. Ağır yaralanmış Xasanı klinikaya çatdırdılar və onun yatdığı palataya Rusiyanın ən məşhur cərrahları gətirildi. Bir ara onun dünyasını dəyişməsi haqqında xəbərlər yayılsa da, həkimlər patriarxı dartaraq ölümün pəncəsindən qopardılar.

Son iki ildə Usoyan kriminal aləmin sürətlə irəliləyən yüklə dolu arabasının yüyənlərini əlində saxlamaqda davam edirdi. O müxtəlif qruplaşmalar arasında baş verən konfliktləri yatırdır, Moskva ətrafında tikdirdiyi və bütün sutka ərzində keşiyi çəkilən böyük bağ evində yaşayırdı. Demək olar ki, hər gün səkkiz cangüdənin müşayiəti ilə paytaxta işgüzar görüşlərə yollanırdı.

Aslan Usoyanın kriminal avtoritet kimi tanınmasında, nüfuz qazanmasında Vyaçeslav İvankovun böyük rolu olub. Usoyan artıq nəinki Rusiyanın qərbində, hətta Uralda, Orta Sibirdə də öz nüfuz dairələrini yaratmışdı. Aslan erkəklənmiş, boyun – boğazı “tüklənmişdi ”. İndi o, onlarla qruplaşmaya rəhbərlik edir və yalnız bir nəfərə, Yaponçikə “dan” ödəyirdi. Onun İvankovla yaxınlığı haqqında nəinki Rusiya kriminaliteti , hətta Amerika “Koza Nostra”sı, İtaliya mafiyası və Yaponiya “Yakudza”sı məlumatlı idi. İki mininci illərin ortalarında Ded Xasan artıq İsrail, Pribaltika və Belçikada da öz nüfuz dairələrini qurmağı bacarmışdı və onun varidatı milyardlarla dollarla ölçülürdü.

İvankovun ölümündən sonra klanın şərtsiz liderinə çevrilmiş Ded Xasanın düşmənlərinin sayı artmışdı. Onların içində yeganə azərbaycanlı (azəri zakonniklərin əksəriyyəti Aslanın klanının üzvləri idilər) “oğru” Pövşən Lənkəranski idi.

Həmin ərəfədə Canıyev Xasan qruplaşmasına qarşı mübarizə aparan Mikeladze qardaşları – Camal (“Cemo”) və Mamuka ilə yaxınlaşmışdı.

2012-ci ilin iyununda Dubayda dincələn Rövşənə sui-qəsd təşkil olundu. Üç bıçaq yarası ilə ağır vəziyyətdə olan Canıyevi reanimasiyaya çatdırdılar. Sui-qəsdçilərin adları arasında Suxumi oğru qruplaşmasının lideri Merab Canqseladzenin qardaşı Levan Suxumskinin də adı hallanırdı. Reanimasiyada Röşənin durumu o qədər pisləşir ki, onu müalicə üçün təcili olaraq Səudiyyə Ərəbistanına aparmaq zorunda qalırlar.

İki ay sonra, sentyabrda yenicə sağalmış Rövşənə yeni sui-qəsd təşkil olunur. Lakin bu dəfə də Lənkəranski olaydan salamat qurtarır.

Bütün bunlara baxmayaraq, Ded Xasanın adamları sakit dayanmaq istəmirdilər. Həmin ildə kriminal aləmdə otuz nəfər (onu azərbaycanlı zakonniklər olmaqla) oğrunun imzalayaraq həbs düşərgələrinə payladıqları molyavalarda Rövşənin oğru adının alınması barədə yazılmışdı.

Oktyabrda oğru aləmini silkələyən daha bir hadisə baş verdi. Ukraynada Ded Xasanın nüfuz dairəsinin vəziyyətini yoxlayan Baxış Əliyev (“Vaxo”) saxlanıldı. Xəfiyyələrlə isti-isti dil tapan Əliyev öz arzusu ilə Türkiyəyə ekstradisiya olundu. İstanbulda “Vaxo” Əliyev Rövşən Lənkətranskinin adamları ilə rastlaşdı və bu görüş az qala ona həyatı bahasına başa gələcəkdi. Rövşənin tərəfdarları Əliyevi huşunu itirənədək döyüblər.

İnformasiya Ded Xasana çatanda, patriarx bərk qəzəblənir və Moskvaya gələrək Rövşənin dərsini verəcəyini bildirir. Lakin onun güc strukturlarında işləyən agentləri bildirirlər ki, Lənkəranski artıq Ukraynadadır və mentlər onu sərhəddi qanunsuz keçdiyinə görə saxlayıblar.

2009-cu ilin dekabrında Canıyev yenidən Ukrayna MCMİ əməkdaşları tərəfindən saxlanıldı və vəkillərin səyinə, hakimə edilən şirnikdirici

təkliflərə baxmayaraq, 5 il Ukraynaya qədəm basmayacaq qadağası ilə Azərbaycana ekstradisiya olundu.

Bakıda yerli Femida ilə bütün problemlərin həlli üçün Lənkəranskiyə üççə ay kifayət elədi. Ağır Cinayətlər Məhkəməsində bir gün əvvəl dövlət ittihamçısı çıxış edərək Rövşənin 12 il barmaqlıqlar arxasında islah olunmasını istəmişdi. Lənkəranski bu işdən də təmiz çıxdı. Məhkəmə binasının qarşısında “Azadlığın mübarək!” demək üçün sıralanmış 38 maşından ibarət kortej Rövşənin “açılan qapı”dan nə vaxt bayıra ayaq qoyacağını gözləyirdi.

Bir neçə günlük istirahətdən sonra beş illik qadağaya baxmayaraq, biznes işləri üçün darıxmış Canıyev Kiyevə qayıtmağa qərar verir. O həm də cangüdənlərinə satqın mehmanxana sahibi ilə də haqq-hesab çəkmək niyyətində olduğunu bildirmişdi. Lakin fikirləşdiyi planları yerinə yetirmək ona müyəssər olmur. MCMİ əməkdaşları onu yenə dəmiryolu vağzalında saxlayırlar.

## Ded Xasanla konflİkt dərİnləşİr

MBN informasiya agentliyinin məlumatında Rövşənin həmyerlisi Vaqif Lənkəranski ilə münaqişəsi araşdırılıb.

Deyilənə görə, Vaqif azadlığa çıxan kimi Ded Xasanla görüşərək ondan Canıyevi yerində oturtmaq, “predyava” (onun oğru adına yaraşmayan hərəkətlərini üzünə söyləmək) üçün “dobro” istəyib. Patriarxın razılığını alan Vaqif fikirləşirdi ki, yenidən Xasanın klanına qəbul edilə bilməyəcəyini anlayan Rövşən mütləq Mikeladze qardaşlarına qoşulacaq. Mikeadzelər həmin vaxt həm Oniani, həm də Usoyanla müxalifətdə dayanırdılar və onlar hər iki oliqarxın razılığını almadan Rövşənin təkidi ilə sxodka çağırmaq qərarına gəlirlər. Yığıncağa Usoyan klanının nüfuzlu zakonniklərindən sayılan, lakin Canıyevlə əks mövqedə dayanan Vaqif Süleymanov da dəvət olunur. Sxodkada müzakirələr zamanı Rövşənlə ağsaqqal Süleymanov arasında münaqişə yaranır və əsəblərini cilovlaya bilməyən Canıyev rəqibinə əl qaldırır.

Hadisədən xəbər tutan Ded Xasan bərk qəzəblənərək Rövşənin ciddi cəzalandırılacağını bəyan edir. Onun cangüdənləri Moskvanı və ətraf rayonları ələk-vələk etsələr də, Canıyevi tapa bilmirlər. Rövşən sxodka başa çatan kimi Kiyevə yol almışdı.

O, bilirdi ki, Aslan sxodkaya göndərdiyi nümayəndənin döyüldüyünü eşidəndə qəzəblənəcək və axtarışa girişəcək.

Ertəsi günü Krişatikdə kafedə oturarkən milis əməkdaşları onu yenidən yaxalayırlar, sərhəddən qanunsuz keçdiyinə görə...

...Rövşənin Vaqif Süleymanovla konfliktinin tarixçəsi vardı. Vaqif oğru aləmində “klassik ənənələrə ” sadiq zakonnik, çox ciddi, sanballı söz sahibi, düzgün adam kimi tanınırdı. “Bazar”a fikir verən, az danışıb, çox iş görən oğru idi. Rövşən də həmişə ona təcrübəli, ağsaqqal kimi hörmət, ehtiram göstərirdi.

Həmin ilin baharında Vaqif Elista kiçmanında srok sarıyarkən Rövşən ona telefon açır və nəyə ehtiyacı olduğunu soruşur. Söhbət əsnasında Canıyev onu zarafatla “qəssab”, “mokruşnik” adlandırır. Bütün günü dörd divar arasında oturan Vaqifin əhval – ruhiyyəsi zarafatlıq olmadığından, ağsaqqal bir qədər əsəbiləşir və türmədən çıxandan sonra Rövşənə necə “mokruşnik” olduğunu əyani olaraq göstərəcəyini bildirir.

Vaqif kiçmandan azadlığa çıxanda bratva Rövşənin təşəbbüsü ilə Rublevskidəki kottejlərdən birində “azadlığın mübarək” məclisi qurur. Adətən belə məclislərdə zakonniklər həm də sxodkalarını keçirirdilər. Məclisdə Cemo, Mamuka, Qela Kardava, Robinzon və Paata Malenkiy kimi böyük nüfuza malik oğrular iştirak edirdilər. Vaqif isə sxodkaya dostu Vasya Voskreslə təşrif gətirmişdi. Sonradan bilinib ki, slavyan oğrunun Vaqifə kompaniya təşkil etməsi Ded Xasanın təklifi ilə baş tutub. Usoyan Vaska Voskresə tapşırıb ki, Rövşənlə Vaqifi barışdırsın, məntiqsiz narazılığı aradan qaldırsın.

Hər şey sülhə doğru gedirdi. Lakin Cemo söz alıb tost deyərkən elə bir lətifə danışıb ki, Süleymanov bunu özünə sataşmaq kimi qəbul edib və gürcünün cavabını qaytarıb.

Cemo qəflətən Vaqifə yumruq atsa da, Diplomat zərbədən yayınıb və yaşına uyğun gəlməyən cəldliklə rəqibə əks zərbə endirib.

Məclisdə əyləşənlər özündən çıxaraq qışqıran Cemonu tutaraq kənara çəkiblər. Vaqif işə heç nə olmamış kimi sakitcəsinə öz yerinə oturaraq ətrafındakı bratvadan Mikeladzeyə olayda kimin haqlı olduğunu başa salmağı xahiş edib. Məntiqsiz zarafata başlayan da, oğruya qulaylanan da Cemo olmuşdu. Bir sözlə, olayda təqsirkar Mikeladze sayılırdı. Oğruların əksəriyyətinin fikrincə, Cemo Vaqifdən üzr istəməli idi. Həm Rövşən, həm də Cemo zakonniklərin təkidi ilə Vaqifdən üzr istədilər. Bundan dərhal sonra Süleymanov sxodkanın axırını gözləmədən məclisi tərk etdi.

1912-ci il dekabrın 10-da Dubaydakı feşenbel otellərdən birində Cemo Mikeladze və Tamaz Koroşinadzenin rəhbərliyi ilə 16 nəfərin taclanmasıyla başa çatan sxodka baş tutdu.

воровской прогон, написанный по итогам сходки, проведенной в Дубае 10 декабря 2012 года, на которой было короновано 16 новых «воров в законе». Приводим текст с сохранением оригинальной орфографии и пунктуации.

«Мир Дому нашему и всему Люду достойному в нем живущему!

Во благо хода воровского Мы ниже обозначенные Воры ставим вас в курс, что 10.12.12 состоялась сходка. На которой был поднят вопрос о недопустимости заочных решений. Всеми Ворами присутствующими на сходке, а также теми Ворами, которые были на связи было принято решение – не менять наших воровских законов. Судьбу Вора можно решить только на сходке и в его присутствии. Весь Люд живущий нашей жизнью понимает о чем идет речь. Детально всем интересующимся при встрече Воры объяснят лично. Также обращаем ваше внимание на то что Воры свои вопросы решают сами. Нам не нужны ни посредники, ни адвокаты. В наши дела ни кто не может вмешиваться кроме нас самих. Дабы не возникало недоразумений вы не должны брать во внимание звонки, в которых пытаются хоть как-то очернить воровские Имена, кто бы за этим звонком не стоял. Это касается также смс-ок.

Со светлой душой Мы доводим до вас приятную новость, что наша семья пополнилась следующими братьями: Леха Злак, Хаджи, Паша Паштет, Руфат Гянджинский, Астик Сухумский, Толян Тольяттинский, Тенгиз Хочо, Ахмед Шалинский, Олег Муму, Гио Жорка, Хамзат Ингуш, Лаша Питерский, Саня Медвежёнок, Энцо.

С Жиганским приветом к вам - Тамаз Корошинадзе, Гиви Горделадзе, Тимур Црипа, Тимоха Гомельский, Мераб Джангвеладзе, Джемо Микеладзе, Мераб Бахия, Тариел Ониани, Алик Тбилисский, Антимос, Ровшан Ленкоранский, Серега Ветлаг, Коба Сухумский, Чинчхлия, Вадик Белый, Тенго, Мамука Микеладзе, Коба Багдатский, Леван Сван, Рома Курд, Зуро, Ираклий Гуту, Лаша Коломенский, Ватия, Гия Гогелиани, Ахмед Сутулый, Матевич, Буйя, Митя Галей, Лаша Сван, Гия Сван, Ираклий Пипия.

Да хранит вас всех Господь!»

2013- cü il yanvarın 16- da Bakı vaxtı ilə saat 15.30 radələrində Moskvanın mərkəzi küçələrindən olan Povarski küçəsində yerləşən “Köhnə fayton” restoranından çıxarkən “Ded Xasan” başından güllələnir. O, xəstəxanaya çatdırılsa da, orada qanaxmadan ölür. Onun qətli bütün dünyada səs-küylə qarşılanır.

# HAŞİYƏ:ZAXARİ KALAŞOV ("Şakro Molodoy") kimdir ?

Usoyan qətlə yetirildikdən sonra Rövşənin ən təhlükəli düşməni Şakro Molodoy kimi klikuxa daşıyan Zaxari Kalaşov oldu.

Ukraynadan olan və Usoyanın adamı sayılan tanınmış oğrulardan biri Dedin ölümündə Rövşənin əlinin olmadığını qətiyyətlə bildirib: "Eto fonar – erunda! Canıyev köhnə oğru əqidəsi, qaydaları ilə yaşayan zakonnikdir. O, Ded Xasanla nüfuz dairəsi uğrunda mübarizə apara bilər, amma heç vaxt ustadına, müəlliminə əl qaldırmaz. Onlar arasında fikir ayrılığı ola bilərdi, amma əqidə ayrılığı barədə söhbət gedə bilməz. Axı, az müddət öncə Usoyan onu Rusiyadakı azərbaycanlılara "smotryaşiy" təyin eləmişdi. Rövşən bütün MDB ölkələrində bu məşhur oğrunun adından hərəkət edir, blatnoyları nəzarətdə saxlayırdı".

Ded Xasanın və sonradan Kalaşov klanının adamlarının yaydıqları məlumatlarda Rövşən Caniyev Vyaçeslav İvankovun ölümünü təşkil etməkdə və Ded Xasana qarşı sui-qəsddə ittiham edilirdi. 2010-cu ilin 16 sentyabrında Ded Xasana qarşı snayperli hücum təşkil edilib və hələ xəstəxanada yatarkən Usoyan özündən sonra mafiya imperiyasına kimin rəhbərlik edəcəyi barədə düşünüb. Ded Xasanın özünü on nəfərə yaxın mühafizəçi qoruyurdu. Hətta ən çox sevdiyi "Bosfor" restoranına (Mironun qərargahı) və özünün "Fayton"nuna (Ded Xasanın qərargahı)" gedəndə belə onun əyləşdiyi masa canlı divarla əhatə olunurdu.

Mənbə bildirib ki, klana rəhbərlik etməkdə Mironun qarşısını ancaq Zaxari Kalaşov kəsə bilər ki, o, kriminal aləmdə "Molodoy Şakro" kimi tanınır. Şakronun nüfuzu kriminal aləmdə, eləcədə də kürdlər arasında olduqca yüksəkdir.

Kriminal geheral Şakro Molodoy nəinki Rusiyada, eləcə də xaricdə çox yaxşı tanınırdı. "Bratskiy kruq"un ( ümumdünya kriminal qrupların liderləri) üzvü olan "Molodoy"u ABŞ-da, İtaliyada, Fransada, Almaniyada güc strukturları çoxdan "arzuolunmaz" qonaq siyahısına salıblar.

Şakronun oğru kimi nüfuz qazanmasında Usoyanın böyük rolu olub. Moskvaya gəldikdən sonra bir neçə dəfə məhkəməyə düşməsi və içəridə "hərəkətləri" Zaxarinin kriminal aləmdə yaxşı çəki, böyük nüfuz yığmasına gətirdi. Onun kriminal nüfuz dairəsinə müxtəlif ticarət mərkəzləri, firmalar, bazarlar, kazino, banklr və hətta çoxlarının girişə bilmədiyi neft-qaz kompleksləri daxil idi.

Zaxari həm slavyan, həm də Qafqzdan olan "qarayambızlılar"la biznes qurmağı bacarırdı. Amma bir neçə illik fəal fəaliyyəti dövründə Kalaşov dostlarla yanaşı çoxlu düşmən də qazanmışdı. Ona bir neçə dəfə həm Moskvada, həm də doğma Gürcüstanda sui-qəsd təşkil olunmuş, dəfələrlə yaralanaraq xəstəxanalarda ölümlə pəncələşmişdi.

Ən barışmaz düşməni isə paytaxtı lərzədə saxlayan "İzmaylovsk" qruplaşmasının liderləri idi.

1999-cu ildə növbəti sui-qəsddən sonra Molodoy Şakro günəşli İspaniyada, Kosta-del- Sol kurort şəhərciyində məskən salmağa üstünlük verdi. İsaniya polisi elə ilk günlərdən Şakronun rus mafiyasının liderlərindən biri olduğundan, onun Pirineydə çirkli pulların yuyulmasında rəhbər rol oynadığından şübhələnmişdi.

Şəgərəsinin kürd knyazlarına mənsub olduğunu dəfələrlə müxtəlif məclislərdə ucadan səsləndirən Kalaşov altı il İspaniyada şahzadə kimi yaşadı. Moskvadan, Sankt-Peterburqdan, Ekatrinburq və İrkutskdan minlərlə kilometrlər uzaqda lövbər salmasına baxmayaraq, Molodoy kriminal biznesini müntəzəm günəş vannası götürdüyü Kosta-del-Soldan məharətlə idarə edirdi.

2005-ci ildə İspaniyanın mavi səmasındakı qızmar günəşi qəflətən qara bulud topası örtdü. Ölkənin güc strukturları "Osa" şifrəli antimafioz əməliyyatı ilə onlarla kriminal aləm liderlərinin həbsə aldılar. Kalaşov isə zirək tərpənərək özünü Ərəb Emiratlarına yetirdi. Lakin interpola verilən məlumatlara görə tezliklə, yəni 2006-cı ilin mayında saxlanılaraq İspaniyaya ekstradisiya olundu.

Qaldırılan cinayət işinə görə Molodoya 12 il həbs cəzası və 32 milyon avro cərimə veriləcəyi söylənilirdi. Məhkəmədə iştirak edən bir neçə güclü vəkillərin sayəsində hakim 7,5 il həbs cəzası qərarını çıxardı, cərimənin miqdarı da xeyli aşağı salındı.

Həmin ərəfədə Gürcüstan məhkəmsi Kalaşovu Moskvadakı "Kristal" kazinosunun sabiq sahibini oğurladıqlarına və beynəlxalq narkosindikat əməllərinə görə qiyabi olaraq 11 il azadlıqdan məhrum edilməsi barədə hökm çıxarmışdı. Molodoyun Tbilisi yaxınlığında tikdirdiyi qəsr konfiskasiya edildi və rəhbərliyin sərəncamı ilə burda pölis şöbəsi yerləşdirildi

Gürcüstan hökuməti Kalaşovun kriminal dünyanın liderlərindən biri olduğunu bidiyindən dəfələrlə İspaniyadan onun ekstradisiyasını tələb etsə də, oğrunun vəkilləri bu tədbirin həyata keçməsinə mane olmağı bacarırdılar.

2013-cü ilin martında Şakronun islah müddəti başa çatir. O İspaniyada qala biməyəcək. Çünki ona "10 il müddətinə İspaniyaya ayaq basmamaq" qadağası qoyulub.

## Köhnə ədavətlər yada düşə bİlər

MBN informasiya agentliyinə müsahibə verən xəfiyyə A. Qorbunov deyib:

- Şakronun həllini tapmamış bir neçə probemləri mövcuddur. Məsələn, Ded Xasanın sağ əli sayılan qanuni oğru Laşa (“Rustavski”) Şuşanaşvili ilə münaqişəni araşdıraq. Şakro İspaniyada islah olunarkən onun biznesi ilə məşğul olmaq Usoyan tərəfindən şəxsən Şuşanişviliyə tapşırılmışdı. Bir müddət sonra Molodoy Şakro kiçmandan xəbər göndərmişdi ki, çətinliklər, məhbəslər bahasına topladığı varidatının talan olunması, dağıdılması ilə əlaqədar Laşadan son dərəcə narazıdır.

Şakronun düşmənlərinin əksəriyyəti indi haqq dünyasında uyuyur, bəziləri isə uzun müddətə məhbəs “sanatoriyalarında” “dincəlirlər”. Sağ qalanlar da var. Məsələn, Sergey Aksyonov ( “Aksen”) həm sağ-salamatdır, həm də azadlıqda gəzməkdən yetərincə zövq alır. Amma o, bir neçə il əvvəl Kalaşovun adamlarının onun “Mersedes”ini partlatmasını xatırlaya bilər. Belə əməllər oğrular tərəfindən qiyamətə qədər unudulmur.

Xəfiyyə onu da qeyd etdi ki, əgər Şakro Usoyan klanının taxtına oturarsa, mövqeyini möhkəmlədərək düşmənləri ilə dil tapacaq, hətta Oniani və Rövşənlə də.

“İzvestiya” qəzeti və MBN informasiya agentliyinin məlumatlarına görə, Ded Xasanın varisi yanvarın 25-də, dəfnin 9-cu günü keçirilən yas məclisində seçilib.

2013 cü il, yanvarın 25-i, saat 3 radələri...

Xovankov qəbristanına yığılan yüzlrlə adam oradan dəfn günündə keçirilən yas məclisinin düzənləndiyi 1905-ci il küçəsindəki “Naş dvor” restoranına yollandı. İçəri ancaq dəvət olunmuşlar buraxılırdı. Bu dəfə qonaqların sayı xeyli az, cəmisi 250-300 nəfər təşkil edirdi.

Yas məclisində Usoyanın oğlu Nodar, Dmitri Çanturiya (“Miron”) və yaxın qohumlar da əyləşmişdi.

Qətldən dərhal sonra Ded Xasanın varisi kimi “Miron”un adı hallansa da, sonradan qohumların heç birinin (Timur Sverdlovski, Yura Soçinski, Sadko) patriarxı əvəzləmək qabliyyətində olmadıqları qənaətinə gəlindi. Aslanın qurduğu kriminal biznes imperiyasını irəli aparmaq üçün taxtda təcrübəli oğrunun oturmasına ehtiyac duyulurdu. Axı, Ded uzun illər ərzində kriminal nüfuz dairəsini elə qurmuşdu ki, burada zakonniklərdən savayı böyük vəzifə sahibi olan məmurlar, güc strukturlarında yerləşdirdiyi iri ulduzlu zabitlər “iş” görürdülər. Mürəkkəb hörümçək torunu xatırladan biznes imperiyasını yaşatmaq üçün cavan qohumların təcrübəsi kifayət deyildi.

Yas məclisi dağılandan sonra zalda qalan yaxınlar yeni liderin kimliyinə aydınlıq gətirdilər. Seçim İspaniya qazamatından azadlığa buraxılacaq və həmin günlərdə 60 yaşını qeyd edəcək Zaxari Kalaşovun (“Molodoy Şakro”) üzərində dayandı.

Molodoy Moskvaya qədəm qoyandan bir neçə həftə sonra keçirdiyi Sxodkada deyib: “Təzə oğrular həbs düşərgələrindən qorxmasalar da, daim çalışırlar ki, ora düşməsinlər. Müasir zakonniklərin təxminən on faizi heç türmə balandasının, çifirin dadını bilmir, bit-birə əzməyib, sıçovul-kəsəyənlə karserlərdə söhbətləşməyiblər. Otuzuncu-yetmişinci illər intervalında taclanan klassik oğrular nə vaxtsa belə zəmanın yetişəcəyini bilsəydilər, şoka düşərdilər”.

Bu günkü qanuni oğru dünya avtomobil sənayesinin şedevr nümunələrində gəzir, öz aralarında «idman zalı» adlandırdıqları çoxmərtəbəli mülklər ucaldırlar. İttifaq dağılandan sonra ad almış zakonnik özünü cangüdənlərlə əhatə edir, çünki onların həyatı heç vaxt bu günkü qədər təhlükəyə məruz qalmayıb. Oğrunun özünə isə silah gəzdirmək yenə də yasaqdır, o “metla”sı - yəni dili ilə həm hücum etməli, həm də müdafiə olunmalıdır.

Hələ gecədən məlum oldu ki, dəfn mərasimi səhər saat 10-a nəzərdə tutulub. Elə də oldu. Səhər 9.40 radələrində mərhumun cənazə namazı qılındı. Namazdan sonra isə cənazə on mindən şox adamın “La İlahə İllƏllah” halayı ilə dəfn edilmək üçün Sadaxıl qəbirstanlıqına aparıldı. Yerli

hakimiyyət və hüquq-mühafizə orqanları xüsusi hazırlıq vəziyyətinə gətirilmişdi. Dəfn mərasiminə Rusiya və Gürcüstandan kriminal avtoritetlərin qatıldığı deyilirdi. Sonradan məlum oldu ki, rus “bratva”sı çələng göndərib. “Yeddisi” mərasimində isə yasa gələnlər arasında Rusiya, Gürcüstan, Dağıstan nümayəndələrindən savayı, Orta Asiyadan olan “qıyıqgözlülər”də gözə dəyirdi. Azərbaycanın bütün regionlarından olan nömrə nişanlı inomarkalarla yanaşı, tanınmış idmançılar, müğənnilər, meyxana ustaları, bir neçə “AA” seriyalı avtomobillərdə gəlmiş hökumət nümayəndələrini də görmək mümkün idi.

Rövşənin yaxın qohumu, deputat Fəzail Ağamalı:

- Allah rəhmət eləsin. Rövşən artıq haqq dünyasındadır. Hər zaman demişəm, indi də deyirəm, mən heç bir azərbaycanlının cinayət aləmində olmasını istəməzdim. Çünki ora normal həyat deyil. Cinayət aləmində olan insan istədiyi kimi yaşaya bilmir, öz ailəsi, uşaqları ilə bir yerdə ola, qohumlarının xeyir işində, yasında belə iştirak edə bilmir. Mən də Rövşənin dəfn mərasimində iştirak etdim, insanlıq borcumu yerinə yetirdim. Qardaşımın qızı Rövşənin qardaşı ilə evlidir, neçə illərdir qohumluq əlaqələrimiz var. Rövşən cinayət aləmində, mən isə siyasətdəyəm deyə onun yasında iştirak etməməyim düzgün olmazdı. Deputat olmağım məni insanlıqdan çıxarmalı deyil ki. Bir epiozodu qeyd etmək istərdim, 2004-cü ildə mən Moskvada infarktdan müalicə olunurdum. Yanvar ayının 3-dən 22-nə qədər Rövşən hər gün dayısı oğlu ilə mənim yanıma gəlirdi. Səhər saat 10-da gələrdi, axşamüstü saat 4-5-də gedərdi. Mən bunu unuda bilərəmmi? Hər şeyə rəğmən, Rövşən Azərbaycandan xaricdə yaşayan və işləyən minlərlə azərbaycanlını kriminal aləmdən, reketlərdən müdafiə edib, onları əzməyə, çətinliklə qazandıqları pullardan məhrum etməyə imkan verməyib.

Rövşənin dəfn mərasiminə olan münasibət onun şəxsi keyfiyyətləri ilə bağlı idi. Bu izdihamın, camaatın avtoritetlərə rəğbəti deyildi, konkret olaraq Rövşənə insani münasibət, vicdani borc idi. Çünki vaxtilə Rövşən onları himayə edib. Dəfndə müasir geyimli, azərbaycanlı olmayan qadınlara da rast gəldim. Onların cinayət aləmilə bağlılığına inanmıram. Bəs onları bura gətirən nə idi? Rövşən mərd, qorxmaz, istedadlı və ədalətli idi. Xaricdə yaşayan soydaşlarımızın haqqı pozulanda onları müdafiə edirdi, bu baxımdan onun sözünün qabağına söz deyəni bağışlamırdı, iradəsinin qabağında iradə yox idi. Artıq 37-38 yaşında faktiki olaraq MDB məkanında cinayət aləmini idarə edən əsas simalardan biri idi. İndi artıq o yoxdur. Görün, bundan sonra cinayət aləmində nələr baş verəcək?

Rövşənini “Yeddisi”nə Moskvadan gələn Teymur Gəncəli danışırdı ki, Rusiyanın paytaxtında Lənkəranskinin qətlindən iki gün sonra onun yaxın ətrafının durumu çətinləşib. Artıq bəzilərinin qorxudularaq bazardan uzaqlaşdırılması, sözə baxmayanların isə döyülməsi xəbəri yayılıb.

Moskvada qətllə bağlı ən çox yayılan versiya 2013-cü ildə güllələnən “Ded Xasan” tərəfdarlarının “cavabı”dır. “Ded Xasan” dünyadan köçəndə onun tərəfdarları qətldə nüfuz sahibləri “Taro”kimi tanınan Tariel Oniani və “Lənkəranski”dən şübhələnmişdilər. Belə nəticəyə gəlmişdilər ki, qətlin ideya müəllifi “Taro”, təşkilatçısı isə “Lənkəranski” olub. Çoxları belə düşünür ki, “Lənkəranski”nin qətli Usoyan tərəfdarlarının qisasıdır.

“Lənkəranski”nin qətlində sifarişçi kimi adı hallanan və hazırda həbsdə oturan “Şakro Molodoy” öz adamları vasitəsiylə bazarların gəlirlərinə sahiblənmək üçün  hərəkətə keçib.

Deyilənlərə görə, bu işlərin başında Vaqif Süleymanov dayanır. Süleymanovun “Şakro”dan başqa nüfuzlu kriminal avtoritet Laşa Şuşanaşvili ilə də yaxşı münasibətlərinin olması hamıya məlumdur. Döyülənlər, ölüdürlmək təhlükəsi ilə üz-üzə qalanlar var. Bazarlara topdan meyvə-tərəvəz daşıyan iş adamları çətin durumda nə edəcəklərini bilmirlər. Bir çoxları vəziyyət aydınlaşana qədər işi dayandırıb. Moskvada “Lənkəranski” tərəfdarları ilə Molodoy adamlarının çox ciddi toqquşması, müharibəsi olacağı gözlənilir.

# ANTALYA SXODKASI

Rövşən Lənkəranskinin qisası üçün and içildi

31 Avqust, 2016 - Antalyada Rövşən Lənkəranskinin qətliylə bağlı «sxodka» keçirilib.

Məlumatına görə, «sxodka"da Lənkəranskiyə yaxınlığı ilə tanınan "oğru"lar iştirak edib.

Məlumata görə, görüş üçün Antalyanın seçilməsi də təsadüfi olmayıb. Çünki Lənkəranskinin ən yaxın dostu Merab Canqveladze (Merab Suxumski) İtaliyada həbsdən çıxandan sonra bu şəhərdə məskunlaşıb. "Sxodka"da ondan başqa Merab Baxiya (Baxa-Baxa), Roin Uqlava (Mateviç), İrakli Kaliçava (Xutu), Koba Axvlediani (Koba Suxumski) və Zurab Dqebuadze (Zura Zuqdidski) də iştirak edib.

"Sxodka" o qədər də uzun çəkməyib. Türkiyə polisinin hadisə yerinə gələcəyindən ehtiyat edən "oğrular" təcili qərar verərək and içib: Lənkəranskinin qisası alınmalıdır.

Hökmün kimə ünvanlandığı barədə məlumat verilmir. Bəlli olan budur ki, Antalyada məskunlaşan Merabdan başqa, adıçəkilən oğrular Türkiyəni tərk edərək Moskvaya qayıdıblar.

Düşmənə lənət olsun,
Qoy yerin cənnət olsun,
Qəbrin nur ilə dolsun,
Röşən Lənkəranski!
Kasıbın dadına yetdin,
Yalnız yaxşılıq etdin,
Yek gəlib, yek də getdin,
Rövşən Lənkəranski!

Ölümün öldürdü məni,
Barışmaq olmur yəni,
Heç unutmarıq səni,
Rövşən Lənkəranski!

Bəhram Çələbi

RÖVŞƏN LƏNKƏRANSKİ

Çapa imzalanmışdır: 07.09.2016
Kağız formatı: 84x108 1/32
Həcmi: 5.ç.v. Tirajı: 1000

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Тел.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing